

XALQ DÖVLƏT ÜÇÜN YOX, DÖVLƏT XALQ ÜÇÜN OLMALIDIR...

# BİNƏQƏDİ

№12 (149) | 22 iyul 2016

İCTİMAİ-SİYASİ QƏZET

Qiyməti: 40 qəpik


Milli Mətbuat Günü ilə bağlı tədbir keçirilib

SƏH. 3

# İdmançılarımızın uğuru Azərbaycan dövlətinin uğurudur



İyulun 18-də Braziliyanın Rio-de-Janeyro şəhərində keçiriləcək XXXI Yay Olimpiya Oyunlarında iştirak edəcək Azərbaycan nümayəndə heyətinin rəsmi yolasalma mərasimi keçirilib. İdman federasiyaları rəhbərlərinin və məşqçilərin də iştirak etdikləri toplantıda Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev geniş nitq söyləyib.

Tədbir iştirakçılarını ürəkdən salamlayan dövlətimizin başçısı əmin olduğunu bildirib ki, həm olimpiyaçılar, həm də paralimpiyaçılar ölkəmizi ləyaqətlə təmsil edəcəklər və Vətənə böyük qələbə ilə qayıdacaqlar: "Bu Oyunlarda Azərbaycan Olimpiya komandası böyük heyətlə - 56 idmançı ilə iştirak edəcək. Lisenziyaların sayı isə 57-dir. Bu, keçən Yay Olimpiya Oyunlarından çoxdur. Biz London Yay Olimpiya Oyunlarında 53 idmançı ilə iştirak etmişik və bildiyiniz kimi, böyük qələbə - 10 medal qazanmışıq, onlardan 2-si qızıl medaldır. Bu dəfə isə daha da böyük heyətlə iştirak edəcəyik və əlbəttə ki, yaxşı nəticələr gözləyirik. Bunu deməyə əsas var. Çünki idmançılarımız son dörd il ərzində müxtəlif beynəlxalq yarışlarda, dünya və Avropa çempionatlarında bizi sevindiriblər, ölkəmizin şöhrətini ucaldıblar və müxtəlif yarışlardan Vətənə böyük qələbələrlə qayıdıblar. Əminəm ki, Rio-de-Janeyroda da idmançılarımız vətənpərvərlik, peşəkarlıq, əzmkarlıq göstərərək ölkəmizi ləyaqətlə təmsil edəcəklər.

Azərbaycan idman dövlətidir. Bunu bütün dünya, idman ictimaiyyəti qəbul edir, bilir. Azərbaycanda idmanla, Olimpiya hərəkatı ilə bağlı məqsədyönlü siyasət aparılır. Məhz bu siyasət nəticəsində biz bu gün bu uğurlar haqqında danışa bilərik. Düşünülmüş siyasət, məqsədyönlü işlər idmanı Azərbaycanda, cəmiyyətdə önəmli bir ictimai amilə çevirmişdir. Bu gün idmançılara cəmiyyətdə çox böyük hörmət var. İdmançılar cəmiyyətdə layiqli yer tutublar".

Azərbaycanda böyük idman infrastrukturunun yaradıldığını vurğulayan Prezident İlham Əliyev son illər ərzində bölgələrdə 40-dan çox Olimpiya idman mərkəzinin tikildiyini, Bakıda isə bir neçə möhtəşəm idman obyektinin istifadəyə verildiyini bildirib: "Bakı Olimpiya Stadionunun ətrafı ekoloji fəlakət zonası idi. Bir tərəfdən bataqlıq, digər tərəfdən Böyükşor gölü ekoloji təhlükə mənbəyi idi. Bütün o ərazilər təmizləndi, neftlə və digər tullantılarla çirklənmiş torpaqlar oradan çıxarıldı, böyük abadlıq işləri aparıldı. Böyükşor gölünün bir hissəsi tamamilə təmizləndi, 1 kilometr uzunluğunda yeni bulvar, parklar salındı. Su İdmanı Sarayının ətrafı da əvvəllər neft mədənləri idi. Onlar da oradan götürüldü, təmizləndi. Bu gün Su İdmanı Sarayının ətrafında 10 hektarlarla ölçülən gözəl park salınıb və Bakı vətəndaşları bu imkanlardan istifadə edirlər".

Hazırda Azərbaycanda dünya səviyyəli idmançı ordusunun yetişdiyini deyən dövlətimizin başçısı onların bütün gənclərə nümunə olduğunu qeyd edib: "Bizim çempionlarımız cəmiyyətdə də özlərini çox ləyaqətlə aparırlar. Bu, bir yeni davranış nümunəsidir. Uşaqlar, yeniyetmələr, idmanla məşğul olmaq istəyənlər də, bax, sizə - burada əyləşən idmançılara oxşamalıdırlar. Onlar görürlər ki, əgər sən idmanda böyük uğur əldə etmisənsə, cəmiyyətdə özünü ləyaqətlə aparırsansa öz həyatını ləyaqətlə qura bilərsən. Ona görə, son illər ərzində idman bölmələrinə müşahidə olunan kütləvi axın bu səbəblərdən qaynaqlanır. Bu, məni çox sevindirir. Çünki bizim gənclər idmanla nə qədər çox məşğul olsalar, onlar üçün də, dövlət üçün də bir o qədər yaxşı olacaq. İdmanla məşğul olanlar vətənpərvər insanlardır. İdman qələbələri hər bir vətənpərvər Azərbaycan vətəndaşını sevindirir".

Çıxışında ötən il Bakıda keçirilən birinci Avropa Oyunlarına da toxunan dövlətimizin başçısı bunu ölkəmizin tarixi nailiyyəti kimi qiymətləndirib: "Digər tərəfdən, idmançılarımız tarixi qələbə qazanmışlar, komanda hesabında ikinci yeri tutmuşlar. Qazanılan 56 medaldan 21-i qızıldır və bu da tarixi nailiyyət idi. Mən həmişə deyirəm, əslində biz birinci yerdə idik. Çünki Avropada Rusiya komandası ilə heç bir komanda rəqabət apara bilməz. Rusiya komandası böyük fərqlə təbii ki, birinci yerdə idi. Ancaq ondan sonra Azərbaycan ikinci yerdə qərarlaşmışdır və bu, doğrudan da bizim böyük qələbəmizdir. Biz hamımız o gözəl günləri xatırlayırıq. Bütün cəmiyyət bir daha birləşmişdir, hər bir vətənpərvər insan bu Oyunları qürur hissi ilə izləmişdir, idmançılarımızın qələbələrinə sevinmişdir.

Avropa Oyunları tarixdə qaldı. Onu da qeyd etməliyəm, mənə çatan məlumatlara görə, bəzi ölkələr indi bir az ehtiyat edirlər. Deyirlər ki, biz bu Oyunları Azərbaycanın keçirdiyi səviyyədə keçirə bilmərik. Ona görə, bir qədər ehtiyat edirlər. Yəqin bilirsiniz, hələlik növbəti yerin adı açıqlanmır ki, bu Oyunlar harada keçiriləcək. Biz isə öz yolumuzla gedirik. Biz öz gücümüzü göstərdik. Bir daha göstərdik ki, güclü dövlətin güclü insanları, güclü idmançıları var. Bu gün Azərbaycan artıq dünya miqyasında çox gözəl, inkişafda olan ölkə kimi tanınır. Bildiyiniz kimi, bu yaxınlarda - keçən ay Azərbaycanda ilk dəfə olaraq Formula–1 yarışı keçirilmişdir. Bu yarış beynəlxalq reytinqə görə Yay Olimpiya Oyunlarının və futbol üzrə dünya çempionatının səviyyəsində olan yarışdır. Bunun tamaşaçı auditoriyası 500 milyon insandır və 500 milyon insan Bakının gözəlliyini seyr edib".

Bu il Bakıda Dünya Şahmat Olimpiadasının, gələn il isə İslam Həmrəylik Oyunlarının keçiriləcəyini xatırladan Prezident İlham Əliyevin sözlərinə görə, bütün bunlar ölkəmizin dünyada oynadığı rolu nümayiş etdirir: "Bu gün Azərbaycan inkişaf edən ölkədir. Azərbaycanda bütün xalqların nümayəndələri bir ailə kimi yaşayır. Biz öz hesabımıza yaşayırıq. Dünyada baş verən böhranlara baxmayaraq, inkişaf yolumuzla gedirik. Həm 2008-2009-cu illərin, həm də 2015-2016-cı illərin böhranı bizim işimizə o qədər də böyük təsir etməyib. Nəyə görə? Çünki xalqla iqtidar vəhdət təşkil edir. Ona görə ki, cəmiyyətdə ölkəmizin inkişafı ilə bağlı fikir ayrılığı yoxdur. Ona görə ki, biz öz hesabımıza yaşayırıq, iqtisadi və siyasi cəhətdən müstəqilik, müstəqil siyasət aparırıq. Bu, ləyaqətli, Azərbaycan xalqının maraqlarına əsaslanan siyasətdir və bütün dünyaya açığıq. Ona görə, bizim dünyadakı dostlarımızın sayı artır. Bizə olan hörmət də artır. Bizimlə əməkdaşlıq etmək istəyənlərin sayı da artır.

Biz öz yolumuzla gedirik. İdman uğurları ölkəmizin uğurlarının tərkib hissəsidir. Ancaq güclü dövlətlərdə güclü idman var. Olimpiya Oyunlarının nəticələrinə baxın. Hansı komandalar birinci yerlərdədir. Onların böyük əksəriyyəti inkişaf etmiş ölkələrin komandalarıdır. Yəni, idmanı ümumi inkişafdan ayırmaq olmaz.

Əziz idmançılar, siz bir neçə gündən sonra yola düşəcəksiniz. Hər bir idman yarışı bir sınaqdır. İdman yarışında qələbə də olur, məğlubiyyət də. Heç kim məğlubiyyətdən sığortalanmayıb. Əsas odur, həmişə yadda saxlayasınız ki, bütün Azərbaycan xalqı sizin qələbələrinizi gözləyir. Sizə uğurlar arzulayır və əmindir ki, siz Vətəni ləyaqətlə təmsil edəcəksiniz, Azərbaycana böyük qələbə ilə qayıdacaqsınız. Sizə yaxşı yol arzulayıram. Sağ olun".

***

Mərasimdə çıxış dən gənclər və idman naziri Azad Rəhimov, yunan-Roma güləşi üzrə Azərbaycan yığma komandasının məşqçisi Akif Əliyev, paralimpiyaçı İlham Zəkiyev və yunan-Roma güləşi üzrə Azərbaycan yığma komandasının üzvü Rəsul Çunayev XXXI Yay Olimpiya Oyunlarında iştirak edəcək idmançılarımızın ölkəmizin şərəfini ləyaqətlə qoruyacaqlarına əminliklərini ifadə ediblər.

Daha sonra Azərbaycanın dövlət bayrağını öpən olimpiyaçılarımız bu mötəbər yarışlarda əzmlə mübarizə aparacaqlarına, xalqımızın etimadını doğruldacaqlarına, ölkəmizin adını uca tutacaqlarına and içiblər.


TARİX SƏH. 4



Çoxəsrlik dövlətçiliyimiz tarixində müstəsna yeri olan şəxsiyyət

TƏCRÜBƏ SƏH. 5



"ASAN könüllüləri"nin Binəqədi RİH-də təcrübəsi uğurla davam edir

ABADLIQ SƏH. 8



Görülən işlər sakinlərin üreyincədir


## Prezidentin Mətbuat Xidmətinin Məlumatı

İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib.

Dövlətimizin başçısı Türkiyədə hərbi çevriliş cəhdini qətiyyətlə pisləyərək bildirib ki, Azərbaycan xalqı və dövləti həmişə olduğu kimi, Türkiyə xalqı və dövlətinin yanındadır. Prezident İlham Əliyev çevriliş cəhdinin qarşısının alınması nəticəsində həlak olanların ailə üzvlərinə və Türkiyə Prezidentinə başsağlığı verib, yaralılara şəfa arzulayıb.

Azərbaycan Respublikasının Prezidenti əminliyini ifadə edib ki, Türkiyəni bundan sonra da heç bir qüvvə inkişaf və demokratiya yolundan döndərə bilməz.

Prezident Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevin və Azərbaycan xalqının göstərdiyi qardaşlıq mövqeyini yüksək qiymətləndirərək bildirib ki, Türkiyə rəhbərliyi ölkədə vəziyyəti normallaşdırmaq üçün bütün lazımi tədbirləri görməkdədir.

# Türkiyə-Azərbaycan birliyi sarsılmaz təməl üzərində qurulub



İyulun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Bu yaxınlarda Varşavada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşünü və ikitərəfli münasibətlərimizin daha da möhkəmləndirilməsi ilə bağlı danışmaq fürsəti əldə etdiklərini məmnunluqla vurğulayan dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin bütün istiqamətlərdə uğurla inkişaf etdiyini deyib. Prezident İlham Əliyev Türkiyənin Baş naziri Binəli Yıldırımın ilk xarici səfərinin Azərbaycana etməsinin önəmini də qeyd edib. Birgə layihələrin vaxtında icra olunmasına toxunan dövlətimizin başçısı Azərbaycan-Türkiyə birliyinin və dostluğunun getdikcə daha da möhkəmləndiyini və artıq bir çox sınaqlardan çıxdığını qeyd edərək bildirib ki, xalqlarımız və digər ölkələr bu birliyin və qardaşlığın möhkəm və sarsılmaz olduğunu görürlər. Ölkələrimizin bundan sonra da bir-birinin yanında olacağını deyən Prezident İlham Əliyev Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun Azərbaycana bu səfərinin ikitərəfli münasibətlərimizin daha da möhkəmləndirilməsi istiqamətində növbəti addım olacağına əminliyini ifadə edib.

Prezident Rəcəb Tayyib Ərdoğanın və Baş nazir Binəli Yıldırımın salamlarını dövlətimizin başçısına çatdıran Mövlud Çavuşoğlu Prezident İlham Əliyevin NATO-nun Varşava Zirvə toplantısında iştirakının və keçirdiyi görüşlərin önəmini vurğulayıb. Xarici işlər naziri Türkiyə ilə Rusiya arasında əlaqələrin düzəlməsində verdiyi güclü dəstəyə görə ölkəsi və xalqı adından Prezident İlham Əliyevə minnətdarlığını bildirib. Son vaxtlar Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılan addımların yaxşı nəticələr verdiyini deyən qonaq bu uğurların ölkəsində sevinclə qarşılandığını qeyd edib. Türkiyə-Azərbaycan ikitərəfli münasibətlərinin mükəmməl olduğunu vurğulayan Mövlud Çavuşoğlu xüsusilə son bir ildə əlaqələrimizin daha sıx şəkildə inkişaf etdiyini deyib.

# Müasir Azərbaycan tarixinin dönüş mərhələsi



İyulun 14-də Binəqədi Rayon İcra Hakimiyyətində ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişinin 47-ci ildönümünə həsr edilmiş tədbir keçirilib. Tədbirdə icra hakimiyyəti başçısının müavini Vüsar İsmayılov, "İki sahil" qəzetinin baş redaktoru, Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvü, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının sədr müavini Vüqar Rəhimzadə, RİH başçısı Aparatının əməkdaşları, rayonun qəsəbə və sahə inzibati ərazi dairələri üzrə nümayəndələri, bələdiyyələr və YAP Binəqədi rayon təşkilatının fəal üzvləri iştirak ediblər.

Tədbirdən əvvəl iştirakçılar ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq ulu öndərə ehtiramlarını bildiriblər.

Mərasimi giriş sözü ilə açan Vüsar İsmayılov 1969-cu il 14 iyul tarixinin əhəmiyyətindən danışıb. Müasir Azərbaycan tarixinin dönüş mərhələsini təşkil edən bu tarixin ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi böyük bir dövrün başlanğıcı olduğunu nəzərə çatdıran natiq ümummilli liderin Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi seçilməsi ilə ölkənin gələcək inkişafının fundamental strateji istiqamətlərinin müəyyənləşdirildiyini deyib.

"Zirvədən zirvəyə və əbədiyyətə" mövzusunda məruzə ilə çıxış edən Vüqar Rəhimzadə ulu öndərin təkcə dövlət quruculuğu sahəsində deyil, milli quruculuqda da liderlik bacarığını vurğulayıb. Bildirilib ki, 1969-cu il iyulun 14-də Azərbaycanın siyasi səhnəsində, sözün böyük mənasında, Günəş doğub. Həmin tarixdə ulu öndər Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilib. 1969-cu ildə keçirilən məşhur avqust plenumu isə Azərbaycanın həyatında mühüm və şərəfli bir mərhələnin başlanğıcı olub. 1969-1982-ci illər respublikamızda quruculuq salnaməsinin parlaq dövrü kimi tarixə düşüb. Ümummilli lider Heydər Əliyev hələ sovet dövründə böyük uzaqgörənliklə və müdrikcəsinə Azərbaycanın gələcək müstəqilliyinə hərtərəfli zəmin yaradıb. Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilən bu siyasət ölkəmizi daha böyük uğurlara daşıyacaq.

# Bələdiyyə qulluqçuları ilə görüş

Bu günlərdə Binəqədi qəsəbə bələdiyyəsinin inzibati binasında Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun bələdiyyə qulluqçuları ilə görüşü keçirilib. Görüşdə icra hakimiyyəti başçısının müavini Vüsar İsmayılov, Aparatın şöbə müdirləri və məsul əməkdaşları, Binəqədi qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndə Elxan Əliyev iştirak ediblər.



Tədbiri giriş sözü ilə açan RİH başçısı Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə, o cümlədən Binəqədi rayonunda sosial-iqtisadi, ictimai-siyasi və abadlıq-quruculuq sahəsində görülən işlərdən, əldə olunmuş nailiyyətlərdən söhbət açıb. X.İsgəndərov son vaxtlar bələdiyyələrin qanunvericilik bazasının möhkəmləndirilməsi, onların statusunun artırılması, cəmiyyətdə bələdiyyələrin nüfuzunun yüksəldilməsi istiqamətində ölkədə aparılan məqsədyönlü işlərdən danışıb.

Daha sonra Binəqədi bələdiyyəsinin rəhbərliyini və şöbə müdirlərini dinləyən RİH başçısı əldə edilən uğurlarla yanaşı, bələdiyyələrdə etik davranış və daxili nizam-intizam qaydalarına riayət olunması, vətəndaş məmnunluğunun təmin edilməsi, bələdiyyənin maddi-texniki bazasının gücləndirilməsi, ərazinin sanitar təmizliyinin daim nəzarətdə saxlanılması, qəsəbədə fəaliyyət göstərən müxtəlif təşkilatlarla qarşılıqlı iş birliyinin qurulması, təhsil, səhiyyə və mədəniyyət müəssisələri ilə sıx əməkdaşlığın yaradılması, bələdiyyələrdə ictimai-siyasi və humanitar məsələlər sektorunun yaradılması, gənclərin dini radikalizmə meyillənməsinin qarşısının alınması və digər məsələlərlə əlaqədar qarşıda duran vəzifələrdən danışıb və bununla bağlı tövsiyələrini verib.



Bələdiyyə qulluqçuları ilə daha bir görüş Rəsulzadə bələdiyyəsinin inzibati binasında baş tutub. Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, RİH başçısının müavini Vüsar İsmayılov, Aparatın şöbə müdirləri və məsul əməkdaşları, həmçinin qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndə Mübariz Məmmədov iştirak ediblər. Bu toplantıda da bələdiyyələrlə bağlı bir sıra həllivacib məsələlər müzakirə edilib, fikir mübadiləsi aparılıb. Rəsulzadə bələdiyyəsinin rəhbərliyini və şöbə müdirlərini dinləyən Rayon İcra Hakimiyyətinin başçısı öz tapşırıq və tövsiyələrini verib.

# Balaca şahmatçı ilə səmimi söhbət





Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov Avropanı "mat" qoyan Binəqədi rayon sakini - 6 yaşlı istedadlı şahmatçı Ziya Məmmədovu qəbul edib. Görüşdə icra hakimiyyəti başçısının müavini Vüsar İsmayılov, RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Elman Dadaşov, rayon Gənclər və İdman İdarəsinin rəisi Qüdsi Bayramov və balaca vunderkindin valideynləri iştirak ediblər.

Kiçik yaşlı şahmatçını və onun valideynlərini təbrik edən rayon icra hakimiyyətinin başçısı gələcək fəaliyyətində istedadlı idmançıya uğurlar arzulayıb. Bildirib ki, bu gün dövlət başçısının idman sahəsinə göstərdiyi diqqət və qayğını balaca Ziyanın əldə etdiyi uğurların timsalında görə bilərik: "Bu yaşda Ziya balamızın əldə etdiyi qələbə valideynləri ilə yanaşı, bizi də çox sevindirib".

Səmimi keçən görüşdə balaca Ziya əldə etdiyi uğurlardan söhbət açıb. Xatırladaq ki, Yunanıstanın Halkidiki şəhərində keçirilən Avropa çempionatında Binəqədi rayon sakini 6 yaşlı istedadlı şahmatçı Ziya Məmmədov 7 yaşlılar arasında Avropa çempionu olub. Yaşca özündən böyüklərlə mübarizə aparan şahmatçımız mümkün 9 xaldan 8 xal qazanıb, 7 oyunda qalib gəlib, 2 qarşılaşmanı isə heç-heçə başa vurub.

# Konsert proqramı keçirilib



Binəqədi rayonunda ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişinin 47-ci ildönümü münasibəti ilə Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkında Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi, rayon Gənclər və İdman İdarəsi, YAP Binəqədi rayon təşkilatı, 26 №-li Uşaq və Gənclərin Yaradıcılıq Mərkəzinin təşkilatçılığı ilə konsert proqramı təşkil olunub.

Tədbirin aparıcıları 14 iyul 1969-cu il tarixinin xalqımızın yaddaşlarında əbədi həkk olunduğunu qeyd edərək, ümummilli lider Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətlərindən, Azərbaycanın inkişafı naminə gördüyü işlər haqqında geniş məlumat veriblər.

Konsert proqramında çıxış edən Binəqədi rayon orta ümumtəhsil məktəbləri arasında keçirilən ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Azərbaycan Səninlədir-Sənsiz deyil" VI yaradıcılıq festivalının laureatları və müğənni Fədayə Laçının musiqi nömrələri tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

# Müqəddəs Ramazan ayı münasibətilə iftar süfrəsi

İyulun 5-də Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən müqəddəs Ramazan ayı münasibətilə iftar süfrəsi açılıb. Mərasimdə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, millət vəkilləri Madər Musayev, Kəmaləddin Qafarov, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavinləri, Binəqədi RİH başçısı Aparatının əməkdaşları, rayon bələdiyyələrinin sədrləri, tanınmış muğam ustası, Azərbaycan Respublikasının xalq artisti Alim Qasımov, filologiya üzrə fəlsəfə doktoru Vərağa Almaslı, ilahiyyatçı Tərlan Məmmədov, ağsaqqallar, ziyalılar, din xadimləri, rayonun idarə, müəssisə, təşkilat rəhbərləri, Binəqədi RİH-də təcrübə keçən "ASAN Könüllüləri" və fəal gənclər iştirak ediblər.



Mərasim "Qurani-Kərim"dən ayələrin və Ramazan duasının oxunması ilə başlanıb. Tədbirdə iştirak edən BDU-nun ilahiyyat fakültəsinin dekanı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, tanınmış şərqşünas-alim Vasim Məmmədəliyev on bir ayın sultanı Ramazan ayının fəzilətləri barədə tədbir iştirakçılarına geniş məlumat verib.

İftar mərasimdə "Qurani-Kərim"dən ayələr və Ramazan duası oxunduqdan sonra Alim Qasımovun və Naxçıvan Muxtar Respublikasının əməkdar artisti Ehtiram Hüseynov ifasında muğam parçası səsləndirilib. Xatırladaq ki, Müqəddəs Ramazan ayı münasibəti ilə rayonun Goradil bağlar massivində yerləşən 2 saylı Evtikmə Kombinatının istirahət zonasında məskunlaşmış Xocalıdan olan şəhid ailələri və məcburi köçkünlər üçün də iftar süfrəsi təşkil olunub. Bununla yanaşı, ay ərzində rayon bələdiyyələri tərəfindən Binəqədi, Biləcəri, Xocəsən qəsəbələrində və mikrorayonlarda yerləşən "xeyir-şər" evlərində iftar verilib. Eyni zamanda, Ramazan bayramı münasibətilə Qarabağ müharibəsi veteranları və əlilləri, şəhid ailələri, ahıl sakinlər, rayonun ictimai-siyasi həyatında fəal iştirak edən fiziki qüsurlu şəxslər də ziyarət olunub.

Keçirilən görüşlərdə Binəqədi Rayon İcra Hakimiyyətində təcrübə keçən "ASAN Könüllüləri", "Azərbaycan Vətən Müharibəsi Veteranları" İctimai Birliyinin Binəqədi rayon təşkilatının və "Şəhid Anaları Xeyriyyə Mərkəzi" İctimai Birliyinin rayon şöbəsinin sədrləri iştirak ediblər. Binəqədi RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Elnur Məmmədov mübarək Ramazan ayı münasibətilə ziyarət edilən ailələri təbrik edib. Qeyd olunub ki, Ramazan həmrəylik, dostluq, qardaşlıq, sevgi, mərhəmət və ruzi ayıdır. Bayram münasibətilə, həmçinin, Binəqədi rayonunda fəaliyyət göstərən dini icmalar və məscidlərə ziyarət təşkil edilib. Məscidlərin axundları, imamları və dini icma nümayəndələri ilə keçirilən görüşlərdə onların timsalında məscidlərə ibadət üçün gələn sakinlərimizin bayramı təbrik edilib.

Görüşlərdə mövcud ictimai sabitlik, vətəndaş həmrəyliyi və etnik-dini tolerantlığın milli siyasətin məntiqi nəticəsi olması, eləcə də dini tolerantlıq sahəsində əldə edilən uğurların dini zəmində ekstremizmə və ayrı-seçkiliyə qarşı mübarizədə faydalı olması əsas müzakirə mövzusu olub. Din xadimləri göstərilən diqqət və qayğıya, Azərbaycanda mövcud olan tolerantlıq ənənələri və multikultural dəyərlərin təbliğinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

BİNƏQƏDİ

Təsisçi:
**Binəqədi Rayon İcra Hakimiyyəti**

Baş redaktor:
**Rüfət Mərdanov**

Ünvan:
**AZ1130, Bakı, Binəqədi rayonu, Nizami Nərimanov küçəsi, 75**

Tel.: **(012) 563 57 28**

E-mail: **bineqedi-qazet@mail.ru**

Qeydiyyat nömrəsi: **55** | VÖEN: **1002874841**

"Binəqədi" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Tiraj: **2000** | Qiyməti: **40 qəpik**

# Milli Mətbuat Günü ilə bağlı tədbir




İyulun 21-də YAP Binəqədi rayon təşkilatının inzibati binasında 22 İyul-Milli Mətbuat Günü ilə bağlı keçirilən tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılov, RİH başçısı Aparatının şöbə müdiri Elman Dadaşov, Təhsil Nazirliyinin Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitunun mətbuat katibi Tofiq Sadıxov, «7 News» İnformasiya Portalının təsisçisi və baş redaktoru Səbuhi Abbasov, Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin İnformasiya Proqramları Baş Studiyasının müxbiri Mənsur Həsənov, Binəqədi rayon Gənclər və İdman İdarəsinin rəisi Qüdsi Bayramov, Binəqədi Rayon Ağsaqqallar Şurasının sədri Akif Rəfiyev, Binəqədi Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın sədri Aslan Mehdiyev, QHT sədrləri, Binəqədi rayon İcra Hakimiyyətində təcrübə keçən «ASAN könüllüləri», Binəqədi rayonu icra nümayəndələri, bələdiyyələr, MKTB, YAP Binəqədi rayon təşkilatının, Gənclər və İdman İdarəsini təmsil edən və Milli Mətbuat günü ilə bağlı rayon ərazisində təşkil olunan 3 günlük təlimlərdə iştirak edən şəxslər, YAP-nın fəal gəncləri, rayon bələdiyyələrində İctimai-humanitar sektora rəhbərlik edən nümayəndələr və rayon fəalları iştirak ediblər.



Bildirilib ki, yaranmasının 141-ci ildönümü qeyd olunan Azərbaycanın milli mətbuatı bu illər ərzində şərəfli inkişaf yolu keçib. Əsası 1875-ci ildə Həsən bəy Zərdabinin təsis etdiyi «Əkinçi» qəzeti ilə qoyulmuş milli mətbuatımızın formalaşma mərhələləri cəmiyyətin öz inkişaf xüsusiyyətlərinə uyğun mürəkkəb təkamül yolu keçərək müasir səviyyəyə gəlib çatıb. Qeyd olunub ki, Milli Mətbuat Günü ilə bağlı Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən tədbirlər planı hazırlanıb və bu tədbir də onun tərkib hissəsidir.

Tədbirdə çıxış edən «7 News» İnformasiya Portalının təsisçisi və baş redaktoru Səbuhi Abbasov deyib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan siyasi kursun məntiqi nəticəsi kimi bu gün ölkədə azad, demokratik və güclü mətbuat var. Hazırda müstəqil mətbuatın formalaşması və inkişafına xidmət edən siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. S.Abbasov Binəqədi rayonunda media qurumları ilə işin peşəkar səviyyədə qurulduğunu və artıq media nümayəndələrinin rayon ərazisində görülən işlər barədə məlumatları rayonun sosial şəbəkələrdəki səhifələrindən, internet saytından operativ şəkildə əldə edə bildiklərindən danışıb. O, məlumatların peşəkar səviyyədə hazırlanması və informasiya mübadiləsinin operativliyinin təmin olunmasına görə rayon rəhbərliyinə minnətdarlığını bildirib.

RİH başçısının müavini Vüsar İsmayılov deyib ki, ümummilli liderimiz Heydər Əliyev hər zaman ölkədə söz və mətbuat azadlığının qarantı kimi çıxış edib: “Bu gün Azərbaycanda söz və mətbuat azadlığı sahəsindəki mövcud vəziyyət qabaqcıl demokratik ölkələrlə müqayisə edilə bilər. Respublikada mətbu nəşrlərin sərbəst fəaliyyətinə, jurnalistlərin öz iradələrini azad ifadə etməsinə bütün imkanlar yaradılıb.

Azərbaycan milli mətbuatının yaranmasında Həsən bəy Zərdabinin və onun yaratdığı «Əkinçi» qəzetinin müstəsna rolu və əhəmiyyəti var. Milli mətbuatın inkişafı və çiçəklənməsi isə məhz ulu öndərin hakimiyyəti dövrünə təsadüf edir. Bu gün də ölkə rəhbərliyi tərəfindən bu siyasət uğurla davam etdirilir. Ölkə mətbuatının inkişafı sahəsində “azad söz azad cəmiyyətin təməl daşıdır” prinsipi əsas meyar kimi qəbul edilir. Azərbaycan Prezidenti cənab İlham Əliyev söz və mətbuat azadlığını demokratiyanın fundamental şərti hesab edir. Dövlət başçısı milli mətbuatın qabaqcıl ölkələrin mütərəqqi ənənələrinə əsaslanmaqla, eyni zamanda xalqın tarixi-milli xüsusiyyətlərini qorumaqla inkişaf etməsini vacib sayır. «Azərbaycan mətbuat işçilərinin təltif edilməsi haqqında», «Azərbaycan mətbuat işçilərinə fəxri adların verilməsi haqqında», habelə «Kütləvi informasiya vasitələrinə maliyyə yardımı göstərilməsi haqqında» sərəncamlar imzalayan Prezident İlham Əliyev jurnalistlərin əməyinə yüksək qiymət verdiyini, onlara arxa-dayaq olduğunu əməli şəkildə sübuta yetirib. Mətbuat işçilərinin mənzil şəraitinin yaxşılaşdırılması ilə bağlı verilən qərarlar sayəsində artıq 150-dən çox jurnalist mənzillə təmin edilib, yaxın aylarda isə jurnalistlər üçün tikilən daha bir bina istifadəyə veriləcək.

Ölkəmizdə söz və mətbuat azadlığına, kütləvi informasiya vasitələrinə ən yüksək səviyyədə diqqət və qayğı göstərilir. Bu diqqət və qayğıya nümunə olaraq Binəqədi rayonunda ənənəvi olaraq media nümayəndləri, jurnalistlərlə, sosial şəbəkələrdə fəal olan gənclərlə görüşlər, tədbirlər keçirilir». RİH başçısının müavini qeyd edib ki, rayon rəhbərliyi mətbuata xüsusi diqqət yetirir və məhz bunun nəticəsidir ki, icra hakimiyyətinin təsisçiliyi ilə dərc olunan “Binəqədi” qəzeti öz düzayn və dolğunluğu baxımından daim yeniliyə can atan mətbu orqanlar sırasındadır. Qəzet rayonun ictimai-siyasi və mədəni həyatında yaxından iştirak etməklə yanaşı, bütövlükdə ölkədə və dünyada baş verən ictimai-siyasi prosesləri geniş işıqlandırmağa can atır.

Sonra rayonun ictimai-siyasi həyatında yaxından iştirak edən bir sıra KİV nümayəndələri rayon icra hakimiyyətinin fəxri fərmanları ilə təltif olunub. Çay süfrəsi ətrafında davam edən tədbir “Dilbərim” rəqs qrupunun ifasında gözəl rəqs nümunələri, və rayonun istedadlı gənci Rəşad Cəfərzadənin səsləndirdiyi mahnılarla davam edib.

# “ASAN FM” radiosunun kollektivi ilə görüş





İyulun 20-də Binəqədi Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə rayonun fəal gəncləri və “ASAN könüllüləri” 22 İyul - Milli Mətbuat Günü münasibətilə “ASAN FM” radiosunun qonağı olublar. Görüşdə “ASAN FM” radiosunun direktoru Emin Musavi, RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Leyla Kərimova, YAP Binəqədi rayon təşkilatı Gənclər Birliyinin sədri Mahmud Məmmədzadə, Binəqədi Rayon İcra Hakimiyyətində təcrübə keçən “ASAN Könüllüləri” iştirak ediblər.

Emin Musavi “ASAN FM” radiosunun fəaliyyəti barədə qonaqlara geniş məlumat verdikdən sonra qonaqlar kollektivi Milli Mətbuat Günü münasibətilə təbrik ediblər, fəaliyyətində uğurlar arzulayıblar. Daha sonra Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən bayram münasibətilə “ASAN FM” radiosuna hədiyyə edilən tort kəsilib.

Xatırladaq ki, builki Milli Mətbuat Günü “ASAN FM” radiosunun qeyd etdiyi ilk peşə bayramıdır. Azərbaycan Respublikasının Prezidentinin tapşırığı əsasında yaradılan “ASAN Radio” 24 dekabr 2015-ci il tarixdən etibarən 100 FM dalğasında test yayımına başlamış və artıq 7 aydır ki, öz fəaliyyətini uğurla davam etdirir.

# Vətən uğrunda canından keçənlər ən yüksək ehtirama layiqdir



İyulun 19-da YAP Binəqədi rayon təşkilatının inzibati binasında ötən il dekabrın 16-da Ermənistan silahlı qüvvələrinin mövqelərimizə minaatanlardan atəş açması nəticəsində şəhid olmuş Milli Ordumuzun hərbi qulluqçusu əsgər Cəfərzadə Rəşad Əlyar oğlu «Hərbi xidmətdə fərqlənməyə görə» 3-cü dərəcəli medalla təltif olunması ilə bağlı mərasim keçirilib.

Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılov, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mənəvi-psixoloji hazırlıq və ictimaiyyətlə əlaqələr idarəsinin zabitləri - polkovnik Nazim Əhmədov, polkovnik-leytenant Hafiz Həsənov, polkovnik-leytenant Rövşən Qarayev, həmçinin Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının şöbə müdiri Elman Dadaşov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon idarəsinin rəisi Mehman Qurbanov, Gənclər və İdman İdarəsinin rəisi Qüdsi Bayramov, Ağsaqqallar Şurasının sədri Akif Rəfiyev, İctimai Şuranın sədri Aslan Mehdiyev, QHT sədrləri, “ASAN Könüllüləri”, şəhid Rəşad Cəfərzadənin yaxınları və rayon fəalları iştirak ediblər.

Mərasimdə çıxış edən Vüsar İsmayılov öncə rayon rəhbərliyi adından mərasim iştirakçılarına təşəkkürünü bildirib. RİH başçısının müavini ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində son illər qazanılan nailiyyətləri qeyd edərək bildirib ki, bu gün Azərbaycanın bölgədə ən yüksək mövqelərə malik ölkə olmasını şərtləndirən əsas amillər sabitlik, dinamik iqtisadi inkişaf və güclü ordudur. Azərbaycan ordusu həm peşəkarlıq, həm də maddi-texniki bazasının səviyyəsi baxımından bölgədə ən güclü ordudur. Azərbaycanda gedən ordu quruculuğu tədbirləri bir daha təsdiqləyir ki, Ermənistanla müharibə başlayacağı təqdirdə, ölkəmizin qələbəsini şərtləndirən kifayət qədər mühüm amillər var.

Sonda ölkəmizin ərazi bütövlüyü uğrunda qəhrəmancasına həlak olan şəhid Rəşad Cəfərzadənin təltif olunduğu “Hərbi xidmətdə fərqlənməyə görə» 3-cü dərəcəli medalı onun qəyyumu Mahir Pənahova təqdim edilib.

# Binəqədi gəncləri hərbi xidmətə yola salındı



“Azərbaycan Respublikası vətəndaşlarının 2016-cı il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2 iyun 2016-cı il tarixli sərəncamına uyğun olaraq, iyulun 15-də Biləcəri qəsəbəsində yerləşən “Milli Qəhrəmanlar” parkında rayon gənclərinin müddətli həqiqi hərbi xidmətə yolasalınma mərasimi keçirilib.

Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi rayon idarəsinin rəisi Mehman Qurbanov, rayon Ağsaqqallar Şurasının sədri Akif Rəfiyev, Binəqədi icra hakimiyyəti yanında İctimai Şuranın sədri Aslan Mehdiyev, Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Elman Dadaşov, Gənclər və İdman İdarəsinin rəisi Qüdsi Bayramov, YAP Binəqədi rayon təşkilatının Aparat rəhbəri Sevinc Abdullayeva, əməkdar artist Ağalar Bayramov, Binəqədi və Biləcəri qəsəbə və bələdiyyə sədrləri, Böyük Vətən müharibəsi veteranları, QHT sədrləri, “ASAN Könüllüləri” və hərbi xidmətə yola salınan gənclərin valideynləri iştirak ediblər.

Yolasalınma mərasimi aprel döyüşlərində qəhrəmancasına həlak olmuş Bağırov Emin İmran oğlunun doğum gününə təsadüf etdiyindən, gənclər öncə şəhidin Binəqədi qəsəbə qəbiristanlığındakı məzarını ziyarət edibərək, onun timsalında vətən uğrunda canlarından keçən bütün qəhrəmanlarımızın qanının yerdə qalmayacağına and içiblər, işğal altında olan torpaqlarımızın Ali Baş Komandanın əmri ilə tezliklə azad olunacağına əminliklərini ifadə ediblər. Sonra tədbir Biləcəri qəsəbəsində yerləşən “Milli Qəhrəmanlar” Parkında davam etdirilib. Parkın ətrafında gəncləri vətənimizə, dövlətimizə yüksək əhval-ruhiyyə ilə xidmət etmələrinə mənəvi dəstək olmaq üçün rayon ictimaiyyəti toplaşıb. Qüdsi Bayramov tədbiri açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Mərasimdə çıxış edənlər, o cümlədən aprel döyüşlərində şəhid olmuş Emin Bağırovun atası İmran Bağırov hərbi xidmətə yola düşən gənclərimizə vətənin keşiyində ayıq durmağı, lazım gələrsə torpaqlarımızın azadlığı uğrunda canlarından belə keçməyə hazır olmağı tövsiyə ediblər.

Tədbirdə nitq söyləyən RİH başçısının birinci müavini İlqar Süleymanov mərasimə toplaşan hər kəsi rayon rəhbərliyi adından salamlayaraq bildirib ki, gənclərin sağlam, vətənpərvərlik ruhunda böyüməsi dövlət-gənclər siyasətinin ən mühüm istiqamətlərindəndir: “Nəzərə almaq lazımdır ki, xalqımızın Dağlıq Qarabağ kimi qaysaq bağlamayan yarası var. Torpaqlarımızın 20 faizi erməni qəsbkarları tərəfindən işğal olunub. Bu baxımdan, yetişməkdə olan gənc nəslin vətənpərvərlik tərbiyəsinin düzgün təşkil olunması mühüm aktuallıq kəsb edir. Vətənini sevən, öz xalqına və dövlətinə sadiq olan insan birmənalı olaraq vətənpərvərdir. Vətən böyüyüb, boya-başa çatdığımız, suyunu içib, havasını udduğumuz müqəddəs diyardır. Hər kəs öz varlığıyla Vətəninə bağlı olmalı, onu sevməli, göz bəbəyi kimi qorumalıdır. Necə ki, ulu öndərimiz Heydər Əliyev bütün ömrünü ancaq xalqına və dövlətinə həsr etmişdir”.

Sonra gənclər Azərbaycan bayrağını öpüb Qurani-Kərimin altından keçərək hərbi xidmətə yollanıblar.

№12 (149) BİNƏQƏDİ

# Çoxəsrlik dövlətçiliyimiz tarixində müstəsna yeri olan şəxsiyyət

Heydər Əliyev birinci dəfə hakimiyyətə gələndə - 1960-cı illərin axırlarında da Azərbaycan iqtisadi və mədəni tənəzzül dövrünü yaşayırdı. O zaman məhz Heydər Əliyevin gəlişi ilə cəmiyyət həyatının bütün sahələrində sürətli yüksəliş, milli ruhun inkişafı və mənəviyyatın tərəqqisi dövrü yaşanmışdı.

Heydər Əliyev ikinci dəfə hakimiyyətə gələndə də yenə özünün siyasi bacarığı gücünə ölkəni vətəndaş müharibəsi təhlükəsindən, ictimai-siyasi pərakəndəlikdən xilas edə bilmiş və cəmiyyətin məqsədini, qayəsini öz varlığında, özünün güclü şəxsiyyətində təzahür etdirərək, doğma xalqını yenidən vahid bir məfkurə ətrafında səfərbər edib onun qəlbində sabaha inam hissi yaratmağı bacarmışdı.

Bütün bu illər ərzində əsl rəhbər kimi məhz Heydər Əliyev Azərbaycan həqiqətlərini qətiyyətlə bütün dünyaya tanıda bilmişdir. Azərbaycan yalnız Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra özünün geosiyasi imkanlarını gerçəkləşdirməyi bacarmışdır. Heydər Əliyevin siyasi zəkası sayəsində Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi arxada qalmışdır.

Dünya siyasət meydanında cərəyan edən proseslərə təsir baxımından Azərbaycan rəhbəri həmişə öz sözü, öz çəkisi, öz sanbalı ilə seçilmişdir. Ümumxalq məhəbbəti qazanan Heydər Əliyevin bitməz-tükənməz enerjisi xalqı yaradıcılıq uğurlarına ruhlandırmışdır.

Tarixin yetirdiyi görkəmli şəxsiyyətlərdən olan Heydər Əliyevin parlaq siyasi zəkası sayəsində iki əsrin və iki minilliyin qovuşuğundakı Azərbaycan öz milli-mənəvi dəyərlərini qoruyaraq, üçüncü minilliyə inamla qədəm qoymuşdur. Heydər Əliyev zəkası bütün sədləri yararaq və qarşıya çıxan heç bir çətinliyə baxmayaraq, Azərbaycanı olduqca mürəkkəb zamanın dalğaları arasından salamat çıxarıb ona həm bölgədə, həm də dünyada layiqli yer qazandırmışdır.

Olduqca mürəkkəb bir dövrdə xalqın xidmətində dayandığını nümayiş etdirən Heydər Əliyev bir çox siyasi xadimin edə bilmədiyini və edə bilməyəcəyini gerçəkləşdirmiş, müasir dünyanın ən aktual çağırışlarına cavab vermək bacarığı ilə XX və XXI əsrlərin tanınmış siyasi xadimləri sırasında həmişəlik öz layiqli yerini tutmuşdur. Xalqımızın yetirdiyi nadir dövlət xadimlərindən olan Heydər Əliyev yaşadığı fırtınalı həyatı boyu hər zaman xalqını, vətənini düşünmüşdür. Onun ürəyi Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, doğma xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Heydər Əliyev bir dövlət başçısı kimi Azərbaycanın ən çətin anlarında onu xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, ölkəsini bəlalardan qurtarmağı bacarmışdır.

Təbiətin ona bəxş etdiyi bir çox nadir keyfiyyətlər sayəsində Heydər Əliyev uzaqgörən şəxsiyyət kimi tarixi hadisələrin gedişini irəlicədən müəyyən edə bilir, milli tarix üçün olduqca böyük əhəmiyyət daşıyan qərarlar qəbul edilən zaman əsl vətənpərvər mövqeyi nümayiş etdirir, tam qətiyyətlə hərəkət etməyi bacarırdı. Şəxsiyyətindəki qətiyyət onun geniş auditoriya qarşısında çıxışlar edərkən çox vaxt elə bədahətən söylədiyi fikirlərdə də parlaq əksini tapmışdır. Sarsılmaz məntiq üzərində qurularaq qeyri-adi dərəcədə böyük təsir gücünə malik məruzə və nitqləri Heydər Əliyevin fəlsəfi və siyasi dünyagörüşündəki dərinliyin və genişliyin açıq ifadəsidir.

Azərbaycan dövlətinin başçısı, Azərbaycan Respublikasının Prezidenti kimi Heydər Əliyevin çoxəsrlik dövlətçiliyimiz tarixində müstəsna yeri vardır. Heydər Əliyevin fəaliyyəti öz əhəmiyyəti baxımından Azərbaycanın hüdudlarından çox-çox kənarlara çıxır. Müasir dövrdə nəinki Azərbaycanda, hətta bütün post-sovet məkanında, eləcə də dünya miqyasında gedən prosesləri Heydər Əliyevin şəxsiyyətindən və fəaliyyətindən kənarda təsəvvür etmək mümkün deyildi.



Müasir Azərbaycanda dövlət quruculuğunun, iqtisadi dirçəlişin, siyasi şüurun, siyasi həyatın son otuz ildən artıq bir dövrünü əhatə edən zaman kəsiyi böyük siyasət xadimi kimi tanınan və dərin zəkaya, ensiklopedik biliyə, geniş dünyagörüşünə malik olan tarixi şəxsiyyətin - Heydər Əliyevin adı, əməli fəaliyyəti ilə, gerçəkləşdirdiyi konkret işlərlə bağlıdır. Bu mürəkkəb proseslər isə onun həm əməli fəaliyyətində, həm də fəlsəfi məfkurəsində - milli dirçəliş fəlsəfəsində öz əksini tapmışdır.

Heydər Əliyev zəmanəmizin böyük filosofu və mütəfəkkiri idi. Onun formalaşdırdığı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyada xüsusi yerini müəyyən etmiş, milli dövlətçiliyimizin bünövrəsini təşkil edərək, dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaratmışdır. Azərbaycan ziyalısını son yüzilliklərdə ən ciddi bir şəkildə düşündürən milli dirçəliş problemləri bütöv şəkildə Heydər Əliyevin həmin illərdəki fəaliyyəti ilə strateji dövlət siyasətinə, elmdən, sosiologiyadan və fəlsəfədən əməli siyasət müstəvisinə keçmişdir.



Heydər Əliyev öz parlaq siyasi zəkası və istedadı sayəsində yeni Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaratmış və gələcəyə aparan yolları müəyyən etmişdir. Məhz buna görə də Azərbaycan tarixinin 1969-cu ildən bəri yaşanan dövrü Heydər Əliyevin adı ilə sıx bağlıdır və tariximizə Heydər Əliyev dövrü kimi həkk olunmuşdur. Bu dövrün isə Azərbaycanın gələcək tarixi taleyi baxımından başlıca məzmunu azərbaycançılıqdır.

Azərbaycanın müstəqil dövlət quruculuğuna aparan yolu, əslində, 1969-cu ildən - məhz onun hakimiyyətə gəlişindən sonra başlamışdır. Bu mənada azərbaycançılığın ən parlaq səhifələri də elə həmin illərdən etibarən yazılmışdır. Heydər Əliyev o dövrdə mövcud olan ideologiyanın qəlibləri çərçivəsində və bu ideologiyaya, əlbəttə, aşkarda daban-dabana zidd olmayan formada olsa belə, alt qatda ona müxalif qalaraq, Azərbaycanda milli ruhun tamamən sıxışdırılmasına nəinki yol verməmiş, əksinə, onu yüksəltmək yolunda bütün imkanlardan maksimum dərəcədə istifadə etməyi bacarmışdır.

Bu baxımdan Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsindən sonrakı dövr milli özünüdərkin, milli özünəqayıdışın başlanğıcı kimi qəbul edilir. Tarixi məhz bu dövrdən etibarən başlanan Heydər Əliyev idarəetmə fəlsəfəsinin başlıca ideya-siyasi istiqamətini də məhz xalqın milli özünüifadəsinin bütün forma və vasitələrinin geniş vüsət alması, milli qürur hissinin güclənməsi və milli şüurun yüksəlişinə təkan verən sürətli inkişaf strategiyasının gerçəkləşdirilməsi təşkil etmişdir. Onun respublikaya rəhbərlik etməyə başladığı ilk günlərdən Azərbaycanın görkəmli şəxsiyyətlərinin yubileylərinin müntəzəm surətdə qeyd olunması bir ənənə halını almış, bu isə Azərbaycan xalqının ümummilli problemləri ilə sıx bağlı olub milli ruhun, milli özünüdərkin yüksəlişi, xalqın tarixi yaddaşının özünə qaytarılması, müstəqil dövlətçilik ideyalarının gerçəkləşməsi üçün zəmin yaratmışdı.

Heydər Əliyevin 1969-82-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrdə görülən işlər milli özünüdərk duyğularını ideoloji sistemin keçmiş buxovlarından xilas edərək, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi təməl prinsiplər əsasında milli ruhun hədsiz yüksəlişini təmin etmiş, xalqımızın qəlbində illərdən bəri sıxılıb qalmış milli dövlətçilik ideyasının gələcəkdə böyük hərəkətverici qüvvəyə çevrilməsi üçün münbit zəmin yaratmışdı.

SSRİ-nin əyalətlərindən biri kimi baxıldığından 1960-cı illərin sonlarına doğru sosial-iqtisadi həyatın bütün sahələrinin gerilədiyi, mənfi meyllərin güclənərək getdikcə daha dərin kök saldığı, hakimiyyət uğrunda gizli rəqabətin artdığı və eybəcər şəkillər aldığı, bütün bunların isə xalqın milli-mənəvi birliyinə ziyan vurduğu Azərbaycanda hakimiyyətə gələn yeni rəhbərin birinci işi respublikada iqtisadi potensialın dağılmasının, ictimai-siyasi həyatda yaranmış tənəzzülün xalqın mənəvi-psixoloji vəziyyətinə mənfi təsir göstərə bilməsinin qarşısını almaqdan ibarət oldu. Respublikada kosmopolit bir əhvali-ruhiyyə hökm sürdüyündən milli kadrların hazırlanması, milli dilin inkişaf etdirilməsi və istifadə olunması, dövlət idarəetmə strukturlarında çalışan məmurların azərbaycanlı olmasına diqqət yetirilməsi istiqamətində nəinki ciddi addım atılmır, hətta bu yöndə edilə bilən təşəbbüslərin qarşısı alınırdı ki, belə bir hal da, heç şübhəsiz, milli şüura malik olan, milli düşüncə ilə yaşayan və milli mentalitetin daşıyıcısı sayılan kadrların yetişməsinə çox ciddi maneələr törədirdi.

İqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuş respublikada yaranmış bu ağır vəziyyətdən çıxış yolu tapılmalı, onun iqtisadi inkişafını təmin etmək üçün prinsipial cəhətdən yeni konseptual səviyyədə yanaşma yolları işlənib hazırlanmalı, iqtisadiyyatda köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıqda və iqtisadi həvəsləndirmədə yeni üsullar tətbiq olunmalı idi. Heydər Əliyev əmin idi ki, millətin siyasi müstəqilliyinin özülünü onun iqtisadi cəhətdən azadlığı şərtləndirir. O illərdə milli ideyanın qıtlığı üzündən baş alıb gedən, həm iqtisadi, həm mədəni tənəzzülə aparan mənfi hallar Heydər Əliyevin hakimiyyətə gəlişi ilə aradan qaldırıldı. Onun yorulmaz fəaliyyətinin nəticəsidir ki, 1970-1985-ci illər baş verən dəyişikliklərin miqyasına görə, ictimai və iqtisadi sahədəki dərin islahatların səciyyəsinə və xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçməsinə görə Azərbaycanın quruculuq salnaməsində, sözün həqiqi mənasında, ən parlaq səhifələr təşkil etmişdir. İndiki dövrdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, onun xarici iqtisadi əlaqələrinin sistemli olaraq genişlənməsi və dünya iqtisadiyyatına daha dərin bir şəkildə inteqrasiyası prosesi hələ 1970-1980-ci illərdə Heydər Əliyev tərəfindən təməli qoyulmuş potensiala əsaslanır. Heydər Əliyevin dövlətçilik strateji proqramında azərbaycançılıq məfkurəsi ilə bağlı diqqəti bir də məhz belə bir cəhət çəkir ki, burada mənəvi, bədii, estetik intibah iqtisadiyyatda, sənaye, tikinti və təsərrüfatdakı böyük nailiyyətlərlə, güzərandakı elliklə yaxşılaşma və kütləvi ruh yüksəkliyi ilə birləşərək vahid axarda gerçəkləşmişdir. 70-ci illərdən başlayaraq iqtisadi potensialın yaratdığı bu yüksəliş Azərbaycanı özünün iqtisadi inkişafının növbəti mərhələsi kimi tarixən zəruri azadlıq mübarizəsinə də daxilən hazırlamışdır. 80-ci illərin sonu - 90-cı illərin əvvəlində müstəqillik hərəkatının geniş vüsət alması Heydər Əliyev dövründəki həmin iqtisadi yüksəliş və ona paralel olaraq tarixi fürsətdən dərhal bəhrələnməyə hazır milli mübarizlik ruhunun təşəkkül tapması sayəsində mümkün olmuşdur.



Totalitar sistemin elm və mədəniyyət xadimlərinə, ziyalılara qarşı ağır təzyiqləri, təqib və təhdidləri Sovetlər İttifaqının bir çox başqa respublikalarında özünü aşkar hiss etdirdiyi halda, qorxmaz, cəsur, möhkəm iradə sahibi olması sayəsində Heydər Əliyev Azərbaycanda yaradıcı insanlar üçün sərbəst düşünmək və düşündüyünü tam ifadə edə bilmək, alt qatda isə milli-mənəvi ideala, Azərbaycanın dövlətçilik tarixində suverenliyi, müstəqilliyi təmin edən dəyərlərə aparan yolları tapmaq imkanı verən bir şərait yaratmışdı.

Məhz həmin illər ərzində Bakıda ən böyük abadlıq işləri görülmüş, müasir Azərbaycan memarlığının əsərləri sayılan və respublikanın siyasi və mədəni həyatında böyük əhəmiyyəti olan bir sıra memarlıq ansamblı, inzibati mərkəz, saray, institut, nəşriyyat, tədris korpusu, kompleks və özünün görkəmi ilə şəhərə rövnəq verən neçə-neçə digər bina tikilib istifadəyə verilmişdir. Məhz Heydər Əliyevin təşəbbüsü sayəsində çox sayda memarlıq abidəsinin bərpası mümkün olmuşdur. O, Azərbaycan xalqının tarixi keçmişində, mənəvi mədəniyyəti tarixində iz qoymuş böyük şəxsiyyətlərin abidəyə çevrilməsinin xalqın milli varlığına, milli duyğularının güclənməsinə son dərəcə müsbət təsir edəcəyini çox gözəl bilirdi. Heydər Əliyevin mədəniyyətimizə, tariximizə dərin ehtiram nümayiş etdirərək göstərdiyi qayğı sayəsində Bakının ən görkəmli yerlərində xalqımızın milli varlığının daşıyıcısı olan böyük insanların əzəmətli heykəlləri ucaldılmış, böyük tarixi şəxsiyyətlərin hər biri üçün bir mədəniyyət mərkəzinə çevrilən ev-muzeyləri yaradılmışdır.

Heydər Əliyevin Azərbaycanın gələcəyini düşünərək uzaqgörənliklə atdığı addımlardan biri də azərbaycanlılardan ibarət gənclərimizi gələcəyin müstəqil ölkəsi üçün gərəkli ixtisaslara yiyələnməkdən ötrü keçmiş Sovetlər İttifaqının nüfuzlu ali məktəblərinə göndərmək təcrübəsi kimi dəyərli təhsil ənənəsinin əsasını qoyması idi. Bu yolla Azərbaycanımızın elmi və kadr potensialı yüksəldiyi kimi, xalqımızın milli-mənəvi, əxlaqi dəyərlərinin təbliği də həyata keçirilirdi.

Heydər Əliyevin başçılığı ilə 1969-82-ci illərdə Azərbaycandakı intibahı şərtləndirən amillərdən biri respublikada təhsilin inkişafına xüsusi diqqət yetirilməsi, gəncliyin ana dilində təhsilinə üstünlük verilməsi olmuşdur. Milli hərbçi kadrların hazırlanması da xalqın müstəqil gələcəyini görən Heydər Əliyevdən ötrü xüsusilə böyük əhəmiyyətli məsələ idi.

Heydər Əliyevin gələcəyin müstəqil Azərbaycanını nəzərdə tutaraq, milli məfkurənin yüksəlişi və xalqın milli dövlətçilik arzularının daha da güclənməsi üçün dövlət quruculuğu sahəsində gördüyü mühüm işlərdən biri SSRİ-nin xarici siyasəti çərçivəsində də olsa, Azərbaycanın xarici aləmlə elmi-texniki, iqtisadi və mədəni əlaqələrinin genişləndirilməsi üçün göstərdiyi maksimum səylərdir. Bu məqsədlə Bakıda ittifaq və beynəlxalq əhəmiyyətli tədbirlər təşkil olunduğu kimi, SSRİ respublikaları və sosialist düşərgəsi ölkələrində, eləcə də digər xarici ölkələrdə Azərbaycan mədəniyyəti və incəsənəti günləri keçirilirdi ki, bütün bunlar son nəticədə Azərbaycanın xarici ölkələrlə və orada yaşayan azərbaycanlılarla əlaqələrinin qurulması üçün zəmin yaradır, azərbaycanlıların özünəməxsus tarixi, mədəni ənənələri olan xalq olaraq tanınmasını, Bakının isə həmin dövrdə dünya miqyasında tanınan bir elm və mədəniyyət mərkəzinə çevrilməsini təmin edirdi. Bu, həmin dövr idi ki, hətta Moskvada, Sankt-Peterburqda çıxan jurnallarda işıq üzü görə bilməyən yazılar fəal vətəndaşlıq nümunəsi olan əsərlər kimi dövrün Bakı mətbuatında dərc oluna bilir, şəxsən Heydər Əliyev səviyyəsində hər cür hücumdan və qəsdlərdən qorunurdu. Həmin illərdə mədəniyyət və incəsənət nümayəndələrinin tarixi keçmişimiz, eləcə də bugünümüzlə bağlı qadağa qoyulmadan milli ruhlu əsərlər yarada bilmələri üçün münbit şəraitin təmin olunması gənc qələm sahiblərinə xüsusi qayğı və diqqətlə yanaşılması ilə əlaqəlidir.

Hakimiyyətə gəldiyi ilk günlərdən Heydər Əliyevin gələcəyə hesablanaraq milli dövlət quruculuğunun əsasını təşkil edən strateji proqramında Azərbaycan dili ayrıca diqqət mərkəzində idi. Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə Azərbaycan dilinə həqiqi dövlət dili statusu qazandırmağa yönəlmiş fəaliyyətinin bəhrəsidir ki, 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusu təsbit olundu. Dövr baxımından sözün əsl mənasında qəhrəmanlığa bərabər belə bir addım məhz gələcəyin müstəqil yeni Azərbaycanı naminə atılmışdı. Azərbaycan dilinin idarəçilikdə geniş tətbiqi, demək olar ki, bütün böyük klassiklərin ittifaq miqyasında yubileylərinin keçirilməsi, Azərbaycan mədəniyyətinin ümumittifaq miqyasda ön mövqelərə çıxması, elmi, ədəbi, mədəni abidələrin planlı tədqiqi və nəşri - bütün bunlar Heydər Əliyevin gələcək milli dövlətçiliyimizin ideya təməlində dayanan siyasətinin əməli nəticələridir.

# “ASAN könüllüləri”nin Binəqədi RİH-də təcrübəsi uğurla davam edir

**Bir sıra layihələrdə ilklərə imza atan və uğur qazanan Binəqədi Rayon İcra Hakimiyyəti yerli icra orqanları arasında ilk dəfə olaraq “ASAN könüllüləri”nin RİH-də təcrübə keçməsinə hərtərəfli şərait yaradıb. “ASAN” School” könüllülük proqramı çərçivəsində həyata keçirilən bu təcrübə müddətində gənclər müasir idarəetmə üsulları ilə tanış olmaq, müxtəlif tədbirlərin, layihələrin təşkilatçılığı işində iştirak etmək və təcrübə əldə etmək imkanı qazanıblar.**

**İyulun 10-da icra hakimiyyətində təcrübə keçən “ASAN könüllüləri”nin 4-cü qrupunun üzvləri ilə RİH başçısı Xaləddin İsgəndərovun görüşü keçirilib. Görüşdə respublikamızda gənclərin inkişafı, dünya birliyinə inteqrasiyası və bu istiqamətdə əhəmiyyətli tədbirlərin keçirilməsinin dövlət siyasətinin prioritetlərindən olduğu bildirilib. İcra hakimiyyətinin başçısı “ASAN Könüllüləri”nin Binəqədi rayonunda əldə edəcəyi təcrübənin onlara gələcək işlərində töhfə verəcəyinə əminliyini ifadə edib. Bildirilib ki, 2 ay davam edəcək təcrübə əsasında gənclər öz inkişaflarına töhfə vermək, fərqli təcrübə qazanmaq şansı əldə edə biləcəklər. Könüllülər təcrübə müddətində rayon idarəçiliyi ilə tanış olmaq, müxtəlif tədbirlərin, layihələrin təşkilatçılığı işində iştirak etmək, idarəçilik təcrübəsi əldə etmək imkanı qazanacaqlar. Təcrübələrini başa vurduqdan sonra onlara sertifikatlar veriləcək. İyulun 11-də rayon İcra Hakimiyyətində təcrübə keçən “ASAN Könüllüləri” üçün “Dəyirmi masa” təşkil olunub. Burada könüllülərlə fikir mübadiləsi aparılıb, onların təklif və istəkləri dinlənilib.**

**Bəs görəsən icra hakimiyyətində təcrübə keçmək gənclərə nə verir, onlar bu işdən yararlana bilirlərmi? Bu suallara cavab almaq üçün gənclərlə söhbətləşdik, onların iş prosesi ilə daha yaxından maraqlandıq.**





**Əli Şabanlı, “ASAN Könüllüləri”nin qrup rəhbəri:** “Prezident Yanında Dövlət İdarəçilik Akademiyasında magistr təhsili alıram. Ötən ilin dekabr ayından bu ilin mart ayına qədər “ASAN xidmət”də təcrübə keçmişəm. Hazırda Binəqədi Rayon İcra Hakimiyyətində könüllülük fəaliyyətimi davam etdirirəm. Ümumi tanışlıqdan sonra işləyəcəyimiz şöbələr müəyyənləşdirildi. Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyada təcrübəyə başladım. Şöbənin işi çox maraqlıdır. Vətəndaşların qəbulu, onların dinlənilməsi, müraciətlərin cavablandırılması, komissiyaya daxil olan sənədlərin qeydiyyata alınması, aidiyyəti üzrə göndərilməsi üzrə təcrübə əldə edirəm. Bundan başqa, məhkəmədən rəy verilməsi üçün daxil olan işlər üzrə komissiya iclaslarında iştirak edirəm. Mülkiyyət hüququ, ad və soyadların dəyişdirilməsi sahəsi üzrə də təcrübəmi davam etdirirəm. Artıq sərbəst şəkildə kargüzarlıq işlərini görməyi bacarıram. Bilmədiklərimi rahat şəkildə şöbə müdirindən, əməkdaşlardan soruşa bilirəm. Burada kollektivin mehriban iş şəraitində işləməyi daha çox xoşuma gəlir. İşçilər bizə könüllü kimi deyil, öz həmkarları kimi baxırlar. Təbii ki, bu da bizdə özünəinam, məsuliyyət hissini artırır”.

**Aygün Əhmədova:** “Kooperasiya Kollecini bitirmişəm. “Master 2” mərhələsi üzrə may ayının 25-dən burada könüllülük fəaliyyətinə başlamışam. Fevral ayında 1 saylı “ASAN xidmət”də könüllü olmuşam. Sonra Binəqədi Rayon İcra Hakimiyyətində təcrübə keçmək üçün vakansiya elan olundu. Müsahibə yolu ilə 250 arasından 10 nəfər seçildi. Sevinirəm ki, seçilənlər arasında mənim də adım var. İşə başladığımız ilk gün bizi icra hakimiyyətinin və YAP Binəqədi rayon təşkilatının inzibati binası



ilə tanış etdilər. Artıq 1 ay yarımdır ki, burada təcrübə keçirəm. Əvvəlcə Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsində təcrübəyə başladım. Məktubların hazırlanması, göndərilməsi, müəyyən tədbirlərin planlaşdırılması ilə yaxından tanış oldum. Bizi Əmək Məcəlləsi ilə bağlı təlimlərə göndərdilər. RİH başçısı bizi qəbul edərək çox səmimi və mehriban söhbət etdi, tövsiyə və məsləhətlərini verdi. Ümumiyyətlə, rayon rəhbərliyi könüllülərə böyük dəyər verir, bizimlə öz əməkdaşları kimi davranır. Hazırda İctimai-siyasi və humanitar məsələlər şöbəsində təcrübəmi davam etdirirəm. Burada ictimaiyyətdə yer tutmaq, özünü bir qədər sosiallaşdırmaq, media ilə işləmək təcrübəsinə yiyələnirəm. Biz icra hakimiyyətinə müraciət edən vətəndaşlara necə həssaslıqla yanaşıldığının şahidi oluruq. Bu, bir vətəndaş olaraq bizi çox sevindirir. Dövlət qurumları öz işlərinə məsuliyyətlə yanaşırlar. Hər hansı problemə görə şöbə müdirinə və əməkdaşlara yaxınlaşa bilirəm və onlar öz köməklərini əsirgəmirlər. Yəni onlar əllərindən gələni edirlər ki, mən lazımi səviyyədə təcrübə qazana bilim. Təcrübə keçdiyim müddətdən bu günə qədər heç bir gərginlik, sıxıntı ilə qarşılaşmamışıq. Burada layihələrlə işləmək qaydalarına da yiyələnirəm, müxtəlif tədbirlərdə, səyyar görüşlərdə tez-tez iştirak edirik. Ən əsas öyrəndiyim subardinasiyadır. Bunu xüsusi vurğulamaq istəyirəm. İctimai-siyasi və humanitar məsələlər şöbəsinin təşkilatçılığı ilə bizim üçün təlimlər təşkil olunur. Bunlar sırf piyar, liderlik, mətbuatla işləmə ilə bağlıdır. Bundan başqa, könüllülüyün mahiyyəti barədə bizimlə tez-tez söhbətlər aparılır. Fürətdən istifadə edib bizə dəstək göstərən hər bir kəsə təşəkkürümü bildirirəm. Burada təcrübə keçmək hər kəsə nəsib olmur. Çalışacağam ki, yaradılan şəraitdən maksimum dərəcədə yararlanım”.

**Cavad Məmmədov:** “İqtisad Universitetinin birinci kurs tələbəsiyəm. Maliyyə üzrə təhsil alıram. Fikirləşdim ki, Binəqədi Rayon İcra Hakimiyyətində “Sakinlərin Müraciət Xidməti - 1646”da təcrübə keçirəm. Nə yaxşı ki, buranı seçmişəm. Təcrübə müddətində vətəndaşlarla necə davranmağı, onlarla



ünsiyyət qurmağı, səbrli olmağı, gülərüzlülüyü öyrənirəm. Təcrübə keçdiyim şöbənin əməkdaşları öz bilik və bacarıqlarını mənimlə paylaşırlar. Bilmədiklərimi sərbəst şəkildə şöbə müdirindən və əməkdaşlardan çəkinmədən soruşa bilirəm. Keçirilən tədbirlərdə də yaxından iştirak edirəm. Şöbənin əməkdaşları məzuniyyətdə olan müddətdə daxil olan zəngləri sərbəst cavablandıra bildim. Burada özümüzü təsdiq etmək üçün hərtərəfli şərait yaradılıb. Kollektiv mənə çox doğmadır. Özümü daha rahat və sərbəst hiss edirəm. Hər səhər işə gəlməyə can atıram”.



**Cavid Rəcəbli:** “İqtisad Universitetində təhsil alıram. Burada Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsində təcrübə keçirəm. Qayda qanunla işləməyi, rəsmi olmağı öyrənirəm. Şöbəyə daxil olduğum ilk gündən əməkdaşlar mənə iş qrafiki barəsində məlumat verdilər. Növbəti iş günündə isə onlar artıq mənə tapşırıqlar verirdilər. Bu, məsuliyyətimi daha da artırırdı, çünki verilən tapşırıqlara nəzarət olunur. Geniş sahəli şöbədir, rayonun sosial-iqtisadi inkişafı ilə bağlı təhlil, proqnoz verilir. Mən artıq konkret qərar verməyi öyrənmişəm. Rayon İcra Hakimiyyətinin başçısı könüllülərin iş şəraiti ilə tez-tez maraqlanır, bizə məsləhət və tövsiyələr verir”.



**Nərmin Qəhrəmanova:** “Artıq bir ay yarımdır ki, Hüquq şöbəsində təcrübə keçirəm. Əməkdaşlarla sıx ünsiyyətdə oluruq. İndiyə qədər heç bir anlaşılmazlıq yaranmayıb. Şöbə müdiri və əməkdaşlar əllərindən gələni edir, mənə hərtərəfli yardım göstərirlər. İşçilərə göstərilən rəftarı xüsusi vurğulamaq istəyirəm. İndiyədək biganəlik hiss etməmişəm. Elə bil burada daimi işçiyəm. Vətəndaşların qəbulunda iştirak etmişəm. Sakinlərə necə davranmaq, onların problemləri ilə maraqlanmaq sahəsi üzrə də təcrübə qazanıram. Düşünürəm ki, bu təcrübə mənim gələcək fəaliyyətimdə yararlı olacaq”.

**Günel Nağıyeva:** “Rabitə Kollecini bitirmişəm. Binəqədi Rayon İcra Hakimiyyətində İnformasiya təminatı və təhlil sektorunda təcrübə keçirəm. Bu yaşda təcrübə keçmək mənim üçün böyük məsuliyyətdir. Burada bütün işlər təcrübəyə başladığım ilk gündən ətraflı izah olunub. İnformasiyanın təmin edilməsi, müəyyən sənəd-



lərlə bağlı sərbəst təhlillər apara bilirəm. Şöbənin əməkdaşları mənə yaxından dəstək göstərirlər. Bilmədiklərimi çəkinmədən onlardan soruşa bilirəm. 1 ay yarım müddətində kiçik addımlarla başladığımız bu yolda daha qürurla, inamla irəliləyirəm. Bütün bunlar göstərilən qayğının, zəhmətin bəhrəsidir. Təəssüratlarım yüksəkdir”.

**Rüfət Orucov:** Azərbaycan Dövlət Aqrar Universitetində təhsil alıram. Binəqədi Rayon İcra Hakimiyyətində təcrübə keçdiyimə görə özümü çox şanslı hesab edirəm. Rayon təsərrüfatı şöbəsində təcrübəmi davam etdirirəm. Artıq buradakı iş şəraitinə demək olar ki, uyğunlaşmışam. İcra hakimiyyətində könüllülərə xüsusi münasibət, səmimiyyət var. Bütün bunlara görə burada özümüzü daha rahat hiss edirik. Şöbənin əməkdaş-



ları öz bildiklərini bizimlə paylaşır, təcrübə mübadiləsi aparırlar. Sənədlərlə işləməyi, ərizə formaları, vətəndaş məktublarının qəbulu haqqında kifayət qədər təcrübə toplamışam. Burada insanlarla ünsiyyət qurmağı, idarəçiliyi, səbirli olmağı öyrənirəm. RİH başçısı bizə xüsusi diqqət və qayğı ilə yanaşır. Təcrübə müddətində bir sıra tədbirlərdə də iştirak etmişik. Könüllülərin Binəqədi rayonu ilə bağlı birgə işlədiyimiz təklif və layihələr var. İnşallah, yaxın gələcəkdə bu layihələri həyata keçirəcəyik”.

**Zibeydə Zahidova:** “2 saylı “ASAN xidmət”in könüllüsüyəm. Hazırda “Master 2” layihəsi çərçivəsində Binəqədi Rayon İcra Hakimiyyətində könüllülük fəaliyyətimi davam etdirirəm. Əvvəla onu deyim ki, “ASAN xidmət” mənim həyatımda yeni bir cığır açdı: istər iş təcrübəsi toplamaq, istərsə də



yeni dostlar qazanmaq baxımından. Binəqədi Rayon İcra Hakimiyyəti iş təcrübəsi qazanmaq baxımından buna bir təkan verdi. Etiraf etmək lazımdır ki, “ASAN Könüllüləri” arasında könüllülüyü davam etdirmək üzrə sorğu aparılsa, siyahıda birinci yerdə Binəqədi Rayon İcra Hakimiyyəti dayanar. Könüllülərin əksəriyyəti təcrübələrini burada keçmək istəyirlər. Sözsüz ki, bu, onlara göstərilən diqqət və yaradılan şəraitdən irəli gəlir. Bizdən əvvəl burada təcrübə keçən könüllülər də belə düşünürlər. Heç də peşman deyiləm. Burada fəaliyyətə başladığımız ilk gündən “ASAN Könüllüləri”nə göstərilən diqqətin canlı şahidi olduq. İcra başçısı bizi qəbul etdi, səmimi söhbət etdik.

Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsində təcrübə keçirəm. Artıq müəyyən qədər təcrübə toplaya bilmişəm. Sənədlərin hazırlanması, çatdırılması, vətəndaşla ünsiyyət, telefon əlaqəsi sahəsində də təcrübə qazanıram. Burada təcrübə keçdiyimə görə çox sevinirəm. Şöbə müdiri bizə xüsusi diqqətlə yanaşır. Əməkdaşlar arasında ayrı-seçkilik yoxdur. Gələcəkdə karyeramı burada davam etdirmək istərdim. Göstərilən səmimiyyətə, diqqət və qayğıya görə hər kəsə minnətdarlığımı bildirirəm. Onu da deyim ki, gələcəkdə kimsəsiz uşaqlara yardımla bağlı qurum yaratmaq istərdim. Bu qurumun işçiləri də könüllü fəaliyyət göstərəcəklər. Düzdür, dövlət tərəfindən həmin uşaqlara hərtərəfli dəstək var. Valideyndən məhrum uşaqların qəlbini sevindirməyi, onların üzündə təbəssüm yaratmağı heç bir var-dövlətlə əvəz etmək olmaz”.

**Azadə İmranzadə:** “Prezident Yanında Dövlət İdarəçilik Akademiyasında təhsil alıram. 1 saylı “ASAN xidmət” mərkəzinin könüllüsüyəm. Bina-



qədi Rayon İcra Hakimiyyətində əvvəllər təcrübə keçən dostlarım çoxdur. Onların məsləhəti ilə buranı seçdim. Mənim atam da icra strukturunda işləyir. Ona görə də icra hakimiyyətinin ciddi iş yeri olduğunu əvvəlcədən bilirdim. Məndə bir yerə uyğunlaşmaqda, insanlarla münasibət yaratmaqda müəyyən problemlər var idi. Şəxsiyyət olaraq çətin uyğunlaşıram. Amma burada elə olmadı. Sənədlərlə və vətəndaşların müraciətləri üzrə iş şöbəsində təcrübəyə başladım. Bura tez uyğunlaşdım. Çox maraqlı kollektivdir. Əsas iş sənəd dövriyyəsi və vətəndaş müraciətləri ilə bağlıdır. Düzdür, kargüzarlıq işi bir az çətindir. Amma bu işlərin də öhdəsindən gəlməyə çalışıram. Əməkdaşlar bizə səmimi münasibət göstərirlər. Buradakı səmimiyyət, mehribanlıq bizdə özünə inam hissini artırır. Əməkdaşlar öyrətməyə maraqlıdırlar. Bizim üçün yaradılan şəraitə görə hər bir kəsə təşəkkürümüü bildirirəm.

# Sağlam həyat tərzi naminə...



Hazırda şəhər və rayonlarımızda istirahət parklarında, həyətyanı meydançalarda idmanla məşğul olmaq üçün hər bir şərait yaradılıb. Bu imkandan nəinki uşaqlar, həmçinin orta yaşlılar, hətta əlillər və ahıl insanlar da istifadə edirlər. Mütəxəssislər açıq havada qurulan idman avadanlıqlarının insanların sağlamlığına daha müsbət təsir göstərdiyini qeyd edirlər. Digər tərəfdən, belə qurğulardan əhali pulsuz istifadə edir, bu isə bütün təbəqələrdən olan insanların idmanla məşğul olmasına imkan verir.

Paytaxtın Binəqədi rayonunda açıq havada xeyli idman avadanlıqları mövcuddur. Rayonun bir sıra parklarında, məhəllədaxili istirahət yerlərində quraşdırılan idman qurğularından istifadə edən sakinlər istədikləri vaxt burada idmanla məşğul olmaq imkanı qazanırlar. Həmçinin, bu idman qurğularında məşğul olanları seyr edən sakinlər burada vaxt keçirməkdən mənəvi zövq alırlar. Binəqədi sakinləri açıq havada quraşdırılan bu qurğulardan maksimum yararlanırlar. Bunu rayonun bir neçə ərazisində yerləşən idman avadanlıqlarının quraşdırıldığı istirahət parklarında aydın görmək mümkündür.

Parklarda müşahidələrimiz zamanı şahidi olduq ki, idman qurğularında məşq edənlər arasında gənc nəslin nümayəndələri çoxluq təşkil edir. Söhbət zamanı məlum oldu ki, onlar asudə vaxtlarını burada səmərəli keçirir və müasir idman qurğularından zövq alırlar. Rayon sakini Rəsul Məmmədov da həmin şəxslərdəndir: “Çox sevinirəm ki, yaşadığım ərazidə belə bir qurğu yaradılıb. Bu cür idman avadanlıqlarının quraşdırılması sakinlərin mənalı istirahəti və asudə vaxtlarının səmərəli, əyləncəli təşkilinə kömək edir. Bu, həm də biz gənclərin rahatlığı üçündür. Mən dostlarımla tez-tez bura gəlir, müəyyən idman hərəkətləri edirəm. Bəzi insanlar ailə üzvləri ilə birlikdə burada məşq edirlər. Təbii ki, idmanla məşğul olmaqla yanaşı, həm də vaxtımızı əyləncəli keçirir, sağlamlığımızı qoruyuruq. Onu da deyim ki, gördüyünüz bu qurğular çox rahatdır. İstər yaşlılar, istərsə də gənclər üçün əlverişli avadanlıqlardır”.

Digər rayon sakini Yusif Əliyev də burada xoş saatlar keçirdiyini bildirdi. Açıq havada idman avadanlıqlarının quraşdırılmasının rayon sakinlərinin ürəyincə olduğunu vurğulayan həmsöhbətimiz ərazidə yaşayan gənc və yaşlı nəslin bu qurğulardan müntəzəm şəkildə yararlandığını dedi: “Evimiz yaxınlıqda yerləşir. Hər gün səhər və axşam məhəllə uşaqları ilə birlikdə burada istirahət edirik. Bilirsiniz ən çox niyə sevinirik? Qurğulardan istifadə etmək pulsuzdur. Bu, gənclərdə idmana olan marağı daha da artırır”.

Parklarda olduğumuz müddətdə müşahidə etdik ki, idman qurğularından yaşlı nəslin nümayəndələri və hətta fiziki qüsurlu insanlar da istifadə edirlər. Bütün təbəqələrdən olan insanların idmanla məşğul olması, təbii ki, təqdirəlayiqdir. Sağlam həyat tərzi keçirən bu insanlar, əlbəttə ki, həm də sağlam ruha malikdirlər.

# Asayiş keşikçiləri peşə bayramlarını qeyd ediblər



İyulun 1-də Binəqədi Rayon Polis İdarəsində polis işçilərinin peşə bayramı ilə bağlı təşkil olunan tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılov, Binəqədi Rayon Polis İdarəsinin rəisi Namiq İsmayılov və idarənin şəxsi heyəti, rayon prokuroru Nazim İmanov, DTX Binəqədi rayon şöbəsinin rəisi Polad Abdullayev, rayon Ağsaqqallar Şurasının sədri, təqaüddə olan ədliyyə general-mayoru Akif Rəfiyev, Binəqədi RİH başçısı Aparatının Hüquq şöbəsinin müdiri Yunis Hüseynov, Aparatın məsul işçiləri, ehtiyatda olan polis əməkdaşları və şəhid ailə üzvləri iştirak ediblər.

Dövlət himninin səslənməsi ilə başlayan tədbiri giriş sözü ilə Namiq İsmayılov açıb. Sonra daxili işlər naziri Ramil Usubovun təbrik teleqramı oxunub.

Tədbirdə çıxış edən Vüsar İsmayılov rayon icra hakimiyyətinin rəhbərliyi adından şəxsi heyəti bu əlamətdar gün münasibətilə təbrik edib, onlara şərəfli və məsuliyyətli işlərində uğurlar arzulayıb. O, Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkədə ictimai asayişin və qanunun keşiyində ayıq-sayıq dayanmaq kimi şərəfli missiyanı Azərbaycan polisinin ləyaqətlə yerinə yetirdiyini vurğulayıb.

Təqaüddə olan ədliyyə general-mayoru Akif Rəfiyev, keçmiş polis əməkdaşı Nazim Mirzəyev və şəhid ailəsinin üzvi Səkinə Dadaşova bu şərəfli sahədə çalışanları təbrik edərək, dövlətin bu sahəyə verdiyi diqqət və qayğıdan danışıblar.

Sonra Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 29 iyun 2016-cı il tarixli 137 saylı sərəncamı oxunub, xidməti vəzifəsində fərqlənmiş 22 nəfər polis işçisinə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının fəxri fərmanları təqdim olunub.

Tədbirdə yekun nitqi ilə çıxış edən Namiq İsmayılov dövlət başçısının asayiş keşikçilərinə göstərdiyi diqqəti xüsusi məmnunluqla vurğulayıb, həmkarlarına bu qayğını öz əməlləri ilə layiqincə dəyərləndirməyi tövsiyə edib. Sonda idarə rəisi polis işçilərinə göstərilən diqqətə görə Binəqədi Rayon İcra Hakimiyyətinin rəhbərliyinə şəxsi heyət adından təşəkkürünü bildirib.

# Seminar-müşavirə keçirilib

Binəqədi Rayon İcra Hakimiyyəti ilə Binəqədi bələdiyyəsi arasında "Səmərəli əməkdaşlıq və fəaliyyətin əlaqələndirilməsində yeni perspektivlər" adlı seminar-müşavirə keçirilib.



Binəqədi Rayon İcra Hakimiyyətində təcrübə keçən "ASAN Könüllüləri"nin də iştirak etdiyi tədbirdə "Multikulturalizm ili" çərçivəsində dini radikalizm və ektremizmə qarşı effektiv tədbirlərin həyata keçirilməsi, PR və mətbuatla iş, rayon ərazisində fəaliyyət göstərən idarə, müəssisə, təşkilatlarla işin koordinasiyalı qurulması və gənclərin asudə vaxtlarını səmərəli təşkili, sosial layihələrin keçirilməsi istiqamətində qarşılıqlı fikir mübadiləsi aparılıb.

Binəqədi Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Rauf Həsənov və Binəqədi bələdiyyəsinin sədri Sitarə Cabbarlı tədbir iştirakçılarını təqdim etdikdən sonra hər iki tərəf arasında ictimai-siyasi və humanitar məsələlər sahəsində, o cümlədən təhsil, məktəbəqədər təhsil, səhiyyə, din, mədəniyyət, KİV-lə əməkdaşlıq, sosial şəbəkələrlə işin təkmilləşdirilməsi və eyni zamanda sosial layihələrin icra edilməsi sahəsində müzakirələr aparılıb. Tədbirdə bir sıra təkliflər irəli sürülüb və həmin təkliflərdən ibarət tədbirlər planının hazırlanması tövsiyə olunub.




Sonra Binəqədi bələdiyyəsində yeni yaradılmış İctimai-humanitar sektor haqqında məlumat verilib, ona rəhbərlik edəcək bələdiyyə qulluqçusu İradə Mustafayeva icra hakimiyyətinin məsul əməkdaşlarına təqdim edilib. Tədbirdə, həmçinin, RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsi tərəfindən Binəqədi bələdiyyəsinin İctimai-siyasi sektoruna göstəriləcək metodoloji köməklik məsələləri də müzakirə olunub.

İyulun 18-də isə Binəqədi Rayon İcra Hakimiyyəti ilə Rəsulzadə bələdiyyəsi arasında "Səmərəli əməkdaşlıq və fəaliyyətin əlaqələndirilməsində yeni perspektivlər" adlı seminar-müşavirə keçirilib. Keçirilən seminar-müşavirədə Binəqədi rayon İcra Hakimiyyəti Aparatının İctimai – siyasi və humanitar məsələlər, Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin əməkdaşları, Rəsulzadə bələdiyyəsinin sədri, bələdiyyə quluqçuları və Binəqədi Rayon İcra Hakimiyyətində təcrübədə olan ASAN könüllüləri iştirak ediblər. Görüşdə dini radikalizm və ektremizmə qarşı effektiv tədbirlərin həyata keçirilməsi, PR və mətbuatla iş, rayon ərazisində fəaliyyət göstərən idarə, müəssisə, təşkilatlarla işin koordinasiyalı qurulması və gənclərin asudə vaxtlarını səmərəli təşkili, sosial layihələrin keçirilməsi istiqamətində qarşılıqlı fikir mübadiləsi aparılıb.

Binəqədi Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Rauf Həsənov RİH-nin məsul əməkdaşlarını bələdiyyə qulluqçularına təqdim edib. Rəsulzadə bələdiyyəsinin sədri Hümbət Hüseynov bələdiyyə quluqçularını təqdim edib və görüşün səmərəliyi haqqında məlumat verib. Müzakirə edilcək məsələlərə diqqət çəkən natiq bələdiyyələrdə yaradılan ictimai- humanitar sektorun əhəmiyyətdən danışaraq, bu sahədə planlaşıdırlan layihələrdən danışlıb.

Təqdimatlardan sonra hər iki tərəf arasında İctimai-siyasi və humanitar məsələlər sahəsində o cümlədən, təhsil, məktəbəqədər təhsil, səhiyyə, din, mədəniyyət, KİV-lə əməkdaşlıq, sosial şəbəkələrlə işin təkmilləşdirilməsi və eyni zamanda sosial layihələrin icra edilməsi sahəsində müzakirələr aparılb. Müzakirələr zamanı bir sıra mühüm təkliflər irəli sürülüb və bu təkliflərdən ibarət tədbirlər planının hazırlanması tövsiyyə olunub. Müzakirələr zamanı Binəqədi Rayon İcra Hakimiyyətində təcrübə keçən «ASAN könüllüləri» də təkliflərini irəli sürərək çıxış ediblər.

Tədbirdə həmçinin Rəsulzadə bələdiyyəsində yeni yaradılmış İctimai-humanitar sektor haqqında məlumat verilib, ona rəhbərlik edəcək bələdiyyə üzvi Jalə Tofiqqızı Rayon İcra Hakimiyyətinin məsul əməkdaşlarına təqdim olunub. Daha sonra rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsi tərəfindən Rəsulzadə bələdiyyəsinin İctimai-siyasi sektoruna göstəriləcək metodoloji köməklik məsələləri müzakirə edilib. Görüşün sonunda xatirə şəkli çəkdirilib.

# Gənclər arasında dövlət qulluğuna maraq artırılır



Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi, Azərbaycan Demokratik Tələbə Gənclər Təşkilatının təşkilatçılığı, Binəqədi Rayon İcra Hakimiyyəti və rayon Gənclər və İdman İdarəsinin dəstəyi ilə "Dövlət qulluğuna gənclərin maraq və imkanlarının artırılması" adlı layihəyə start verilib.

Layihənin ilk təliminin açılış mərasimi iyunun 27-də Binəqədi rayon Gənclər evində keçirilib. "Dövlət qulluğuna gənclərin maraq və imkanlarının artırılması" adlı maarifləndirici layihənin keçirilməsində məqsəd ali təhsilli gənclər arasında dövlət qulluğuna marağın artırılması, onların stimullaşdırılmasıdır. Binəqədi rayon Gənclər evi və YAP Binəqədi Rayon Təşkilatının inzibati binasında aparılan təlimlər hüquqşünas ekspert Zaur Quliyev və Sərdar Mahmudov tərəfindən aparılıb. Təlimlərdə 4 həftə ərzində və hər dəfə 20 nəfər olmaqla ümumilikdə 80 nəfər gənc iştirak edib.

Artıq təlimlər yekunlaşıb və təlimi uğurla bitirən gənclərə sertifikatlar təqdim olunub. Təlimlərdə, həmçinin, Binəqədi Rayon İcra Hakimiyyətində təcrübə keçən "ASAN Könüllüləri" də sertifikata sahib olublar əldə ediblər.

# Binəqədi bələdiyyəsində treninq



İyulun 15-də Binəqədi bələdiyyəsində bələdiyyə qulluqçularına və Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 1 və 2 nömrəli sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin əməkdaşlarına vətəndaş müraciətlərinə baxılması, sənədlərlə işin və vətəndaşların qəbulunun təşkili ilə əlaqədar treninq keçirilib.

Tədbirdə Binəqədi RİH başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Elnur İmanov tərəfindən Azərbaycan Respublikası Prezidentinin 23 iyun 2016-cı il tarixli fərmanı ilə təsdiq edilmiş "Dövlət və bələdİyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası" izah olunub, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Milli mətbuat günü ilə bağlı təlim keçirilib

Binəqədi Rayon İcra Hakimiyyəti, YAP Binəqədi rayon təşkilatı və rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə 22 iyul – Milli mətbuat günü ilə bağlı təlimlərin açılış mərasimi keçirilib. YAP Binəqədi rayon təşkilatının inzibati binasında təşkil olunan açılış mərasimində Binəqədi rayon İcra Hakimiyyəti Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Leyla Kərimova, YAP Binəqədi rayon təşkilatının Aparat rəhbəri Sevinc Abdullayeva, İTV-nin "Yeni Gün" proqramının aparıcısı Saleh Bağırov, təlimçi Tofiq Sadıqov, icra hakimiyyətində təcrübə keçən "ASAN könüllüləri", gənc fəallar, icra nümayəndələri, bələdiyyələrin, YAP Binəqədi rayon təşkilatının və Gənclər və İdman İdarəsinin səhifələrini idarə edən adminlər iştirak ediblər.



Tədbirdə çıxış edən YAP Binəqədi rayon təşkilatının Aparat rəhbəri Sevinc Abdullayeva qeyd edib ki, hər bir xalqın milli-mənəvi irsini, əxlaqi dəyərlərini, genetik yaddaşını gələcək nəsillərə ötürmək missiyası kimi çətin və məsuliyyətli vəzifənin gerçəkləşməsində fenomenal şəxsiyyətlərin rolu əvəzsizdir: "Heydər Əliyev belə şəxsiyyət olmaqla bu baxımdan xalqımız üçün bənzərsiz və unudulmazdır. Ümummilli lider Azərbaycanın dövlət müstəqilliyinin dönməzliyini təmin etməklə yanaşı, xalqımızın və dövlətimizin ideoloji xəttini, söykənəcəyi təməl prinsiplərini irs olaraq müəyyənləşdirib. Azərbaycan xalqı Heydər Əliyevin qurub yaratdıqlarından daim bəhrələnəcəkdir".

Mərasimdə çıxış edən Binəqədi rayon İcra Hakimiyyəti Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Leyla Kərimova layihə haqqında o cümlədən Ulu Öndərin mətbuata göstərdiyi diqqətdən söz açıb. Natiq bildirib ki, məhz Mətbuat günü ərəfəsində Binəqədi rayonunda təşkil edilən bu təlimlərin əsas məqsədi önə çəkilən mövzular sahəsində gəncləri maarifləndirmək və bu sahədə işləri təkmilləşdirməkdir.

Çıxışlardan sonra "Mənim elektron dünyam" adlı videoçarx nümayiş edilib.

Sonra İTV-nin "Yeni Gün" proqramının aparıcısı Saleh Bağırovun moderatorluğu ilə "TV və İnternet-Tv " mövzusunda təlimin ikinci hissəsinə start verilib.

Mövzu əsasında gəncləri maraqlandırılan suallar cavablandırılıb və təlim diskussiya şəkilində davam edib.

# Asudə vaxtdan səmərəli istifadə olunur



Binəqədi rayonunda yeniyetmə və gənclərin yaradıcılıq qabiliyyətlərinin üzə çıxarılması, eləcə də onların asudə vaxtının səmərəli təşkili, diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Rayon ərazisində bir neçə uşaq-gənclər yaradıcılıq mərkəzi fəaliyyət göstərir. Bu məktəblər fəaliyyətini müasir dövrün tələbləri səviyyəsində quraraq gənc və yeniyetmələrin zərərli vərdişlərdən uzaq olmasına, mənəvi-intellektual səviyyəsinin artmasına kömək olur.

Biləcəri qəsəbəsində yerləşən 26 saylı Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində də istedadlı uşaqlar üçün hər cür şərait yaradılıb. Burada təkcə Binəqədidən deyil, paytaxtın digər rayonlarından da uşaqlar bacarıqlarını nümayiş etdirirlər. Mərkəzin foyesində yaradıcı uşaqların düzəltdikləri avtomobil, raket və gəmi modelləri, müxtəlif janrlı rəsm əsərləri, əl işləri zövq oxşayır. 1988-ci ildən fəaliyyət göstərən yaradıcılıq mərkəzində texniki, bədii, estetik və tətbiqi incəsənət bölmələri var. Bu bölmələr üzrə «Bacarıqlı əllər», «Bədii qiraət», «Rəsm», «Xalçaçılıq», «Dram», «Bədii özfəaliyyət», «Məktəb teatrı», «Rəqs», «Nağara», «Qarmon», «Dizayner», «Texniki estetika», «Gəmi», «Avto», «Raket», «Təyyarə modelçiliyi» və s. adlar üzrə dərnəklər fəaliyyət göstərir. 19 dərnək üzrə 74 qrupun fəaliyyət göstərdiyi yaradıcılıq mərkəzində 1000-dən artıq yeniyetmə və gənc asudə vaxtını səmərəli keçirir. Bacarıqlı uşaqlarla 32 müəllim məşğul olur.

Mərkəzin direktoru Ziyad Nəbiyev bizimlə söhbətində bildirdi ki, məhz belə tədris müəssisələrində gələcəyimiz olan gənc nəsil faydalı işlərlə məşğul olur, pis vərdişlərdən uzaqlaşır. Müxtəlif dərnəklərdə onlar bacarıqlarını göstərir, fərdi xüsusiyyətləri ilə yaşıdlarından fərqlənir, gələcəkdə hansı peşəni seçəcəklərinə dəqiq qərar verirlər: "Dərnəyimizin üzvləri il ərzində müxtəlif mədəni-kütləvi tədbirlər, müsabiqələr, sərgilər, bayram şənlikləri keçirir, respublika və beynəlxalq səviyyəli tədbirlərdə iştirak edirlər. Mərkəzdə, həmçinin, «Sağlam həyat tərzi» və s. mövzularda məşğələ və seminarlar təşkil olunur, narkomaniya və alkoqolizmlə mübarizə üzrə maarifləndirmə işləri aparılır. Qeyd edim ki, dərnək rəhbərləri məşğələlərin məzmununun yeniləşdirilməsi, müasir tələblərə cavab verən yeni tədris planı və proqramların hazırlanması istiqamətində fəal çalışırlar. Texniki bölmələrə cəlb olunan uşaqların yaradıcılıq potensiallarının inkişafına, onların ixtiraçılıq qabiliyyətlərinin üzə çıxarılmasına ciddi nəzarət edilir. Belə müəssisələrdə məşğul olan məktəblilər ümumtəhsil ocaqlarında bu sahə üzrə bilikləri daha yaxşı mənimsəyirlər. Mərkəzə müraciət edən istedadlı uşaqların sayı günü-gündən artmaqdadır. Bundan başqa, bizim müəllimlər vaxtaşırı Biləcəri qəsəbəsində yerləşən orta məktəblərdə olur, bacarıqlı uşaqları buraya cəlb edirlər».



Mərkəzin yetirmələrinin mütəmadi olaraq müxtəlif müsabiqələrdə iştirak etdiyini deyən Z.Nəbiyev onların elmi-texniki yaradıcılıq müsabiqəsində də mükafata layiq yerlər tutduğunu diqqətə çatdırdı: "Mərkəzin yetirmələri ötən illərdə olduğu kimi, ilin ilk 6 ayı ərzində də ayrı-ayrı müsabiqə və rəsm sərgilərində uğurla iştirak ediblər. İstedadlı uşaqlarımızın bir neçəsi ümumrespublika sərgilərində mükafatçılar sırasında yer tutub. Bakı Təhsil İdarəsinin təşkil etdiyi folklor müsabiqəsində istedadlı uşaqlarımız iştirak edərək ayrı-ayrı nominasiyalarda fərqləniblər. İstedadlı uşaqlarımız "Azərbaycan Səninlədir – Sənsiz deyil" VI yaradıcılıq müsabiqəsində, eləcə də "Səni tərənnüm edirəm, Azərbaycan!" festivalında fəal iştirak ediblər".

Hazırda Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin yetirmələri qarşıdakı müsabiqə və sərgilərə məsuliyyətlə hazırlaşırlar. Yaradıcı uşaqlar bu müsabiqələrdə öz istedad və bacarıqlarını yüksək səviyyədə nümayiş etdirmək əzmindədirlər.

# Yay tətilinin səmərəli təşkilində kitabxanaların rolu



Müasir dövrdə elm və texnologiyanın inkişafı əhalinin kitaba olan marağını xeyli azaldıb. İndi yaşından, cinsindən və tutduğu vəzifədən asılı olmayaraq, əksəriyyət gününün əsas hissəsini kompüter qarşısında keçirir və mütaliəyə çox az vaxt sərf edir. Bu xoşagəlməz meylin müsbətə doğru dəyişməsi maarifləndirmə tədbirlərindən çox asılıdır. Ona görə də Binəqədi rayonunda əhalinin mənəvi-intellektual səviyyəsinin yüksəldilməsi, insanların zəruri bilik və informasiya ilə təmin edilməsi üçün müxtəlif tədbirlər həyata keçirilir.

Sözsüz ki, uşaq, yeniyetmə və gənclərin ədəbiyyata, ümumiyyətlə, mütaliəyə marağının artırılması baxımından, kitabxanaların xüsusi rolu var. Rayonda fəaliyyət göstərən Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) həyata keçirdiyi layihələr bu baxımdan böyük əhəmiyyətə malikdir. 8 kitabxana bazasında yaradılmış MKS-in uşaq, informasiya resursu, komplektləşdirmə, metodika və biblioqrafiya şöbələri oxuculara xidmət göstərir. Mərkəzin kitab fondu 481515, oxucu sayı 21156, kitab verilişi isə 42736-dır. MKS-in uşaq şöbəsində kitab fondunun sayı 31052-dir. Oxucuların sayı isə 2946 nəfərdir. Kitab verilişi isə 21265 olub.



MKS-in Metodika və Biblioqrafiya şöbəsinin müdiri Şəfa Quliyeva bizimlə söhbətində bildirdi ki, hər il qurumun işçiləri Respublika İxtisasartırma Mərkəzində təşkil olunan təlim və seminarlarda iştirak edərək peşəkarlıq səviyyələrini artırırlar: "MKS-in strukturuna daxil olan bütün kitabxanaların kitab fondu komplekləşdirmə və kitabiləşmə şöbəsi tərəfindən milli vətənpərvərlik, mədəni və mənəvi dəyərləri təbliğ edən kitablarla zənginləşdirilir. Filiallarda kitab fondlarının elm sahələri üzrə düzgün və sistemli qaydada düzülməsi, rəflərə yerləşdirilmə qaydası, fondun mühafizəsi və dövriyyəsi ilə əlaqədar işlər həyata keçirilir. Digər illərdə olduğu kimi, bu il də MKS-ə M.F.Axundov adına Milli Kitabxana, Bakı şəhər Mədəniyyət və Turizm İdarəsi tərəfindən yeni kitab və nəşr nümunələri daxil olub. Oxucular tərəfindən hədiyyə olunan kitablar mərkəzi kitabxana və filiallara verilib. Burada məzmunca köhnəlmiş, yararsız hala düşmüş, oxucular tərəfindən istifadə olunmayan ədəbiyyatlar silinib. Şöbəyə elektron nəşrlər, təbiət elmləri, texnika və kənd təsərrüfatı, tarix və siyasət, iqtisadiyyat, hüquq, mədəniyyət və incəsənət, filologiya və bədii ədəbiyyat, din, fəlsəfə və universal ədəbiyyat da daxil olub. Qeyd edim ki, bu ədəbiyyatlar Azərbaycan, rus və ingilis dillərindədir. 1924 nüsxə ədəbiyyatın kataloqlaşdırılması da aparılıb. Kitabxanada yardımçı ədəbiyyat fondunun kataloqlarının və mərkəzi kataloqun yaradılması istiqamətində işlər bu gün də davam etdirilir".

Şöbə müdiri onu da əlavə etdi ki, ədəbiyyatların tematik tipoloji təşkili və qeyri-fəal istifadə edilən nəşrlərin müəyyənləşdirilməsi, oxucuların informasiya tələblərinin ödənilməsinə yönəlmiş sorğuların keçirilməsi və əldə edilmiş nəticələr əsasında fondların komplektləşdirilməsi ilə əlaqədar müvafiq işlər də görülüb: "Hazırladığımız "İnkar jurnalı"nda oxucuların tələbləri və onlara verilən "hə" və "yox" cavabları, "Fondda yoxdur", "Oxucudadır" qeydləri aparılır. Komplektləşdirmə işinin mükəmməl və oxucu tələbinə uyğun aparılması üçün bu jurnallardan geniş istifadə edirik və nəticədə oxuculara verilən rədd cavablarının azalmasına nail oluruq".

MKS və onun filiallarında "Uşaqlarda bədii potensialın üzə çıxarılması və inkişafı" başlığı altında mütəmadi olaraq yaradıcılıq sərgisi keçirilir. Burada yeni biblioqrafik kartotekaların tərtibatı və biblioqrafik bülletenlər hazırlanır. Sistemin İnformasiya resurs şöbəsi "MKS-də mutimedia fondunun təşkili" mövzusunda keçirilən seminarda bir sıra mövzulara toxunulub. Əsas məqsəd multimedia fondunun təşkili prosesini mütəxəssislərə izah etmək, filiallarda mövcud olan multimedia məhsullarının siyahısını müəyyənləşdirməkdən ibarətdir. MKS-in keçirdiyi bütün tədbirlər, sərgilər "binaqadi.cls.az" saytında ətraflı işıqlandırılır.

Müsahibimizin sözlərinə görə, MKS-də oxucuların informasiya tələbatını ödəmək üçün müasir informasiya resurslarından istifadəyə diqqət daha da artırılıb: "Facebook.com sosial şəbəkəsində mərkəzin öz səhifəsi yaradılıb. Məqsəd ictimaiyyətlə daha sıx əlaqə qurulması, kitabxanaya yeni oxucuların cəlb olunmasıdır. Səhifə vasitəsilə kitabsevərlər və oxucular kitabxanada və kənarda təşkil olunan tədbirlərə, o cümlədən yazıçılarla görüşə dəvət olunurlar. Səhifədə, həmçinin, müəyyən sorğular keçirilir. Kitabxananın saytında yerləşdirilən məlumatlar istifadəçilərlə paylaşılır. Mərkəzin oxucuları da öz fəallıqları ilə seçilirlər. Onlar müxtəlif mövzulara həsr olunmuş inşa-yazı və rəsm müsabiqələrində iştirak edir və fərqlənirlər".

MKS-in fəal oxucuları Binəqədi rayonu və respublika üzrə təşkil olunan müxtəlif müsabiqələrdə, sərgilərdə öz fəallıqları ilə seçilirlər. Onlar, həmçinin, Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin tabeliyində olan kitabxanaların oxucuları arasında da öz sözlərini deyə bilirlər.

Şəfa Quliyeva hesab edir ki, yay tətilinin səmərəli təşkilində kitabxanaların rolu danılmazdır. Məhz bu dövrdə onları kitab oxumağa alışdırmaq asan olur: "Ümumiyyətlə, uşaqlarda mütaliə vərdişlərinin erkən yaşlarda təbliği olduqca vacibdir. Çünki çox mütaliə edən uşaqların intellekti daha sürətlə inkişaf edir. Daim dəyişən rəngarəng dünyamızda uşaqlarımızın mütaliə aləmini zənginləşdirmək, dünyagörüşünü artırmaq bütün yeniliklərə qarşı onların daha savadlı daha zəkalı böyüməsinə təkan verə bilər. Mütaliə insana həyatı sevdirir, zehni açır, ətraf mühiti, dünyanı, insanları tanıdır. Bizim kitabxanada təkcə yay tətilində deyil, ilin bütün vaxtlarında uşaq, müəllim və valideynlərlə iş aparılır".

MKS-də bağça yaşlı uşaqlarda kitaba həvəsin yaradılması istiqamətində də müəyyən işlər görülür. Yaxın ərazilərdə yerləşən bağçalardan azyaşlıların kitabxanaya ekskursiyası təşkil olunur, mütaliəyə maraq yaratmaq məqsədilə ucadan oxular keçirilir.

# Balaca fidanların nümunəvi aksiyası





İyulun 15-də Binəqədi Rayon İcra Hakimiyyəti və Binəqədi bələdiyyəsi tərəfindən Novxanı çimərliyində "Birgə yaradaq" layihəsi çərçivəsində təmizlik aksiyası keçirilib. Aksiya Mədəniyyət və Turizm Nazirliyinin Novxanı qəsəbəsində yerləşən "AF-Hotel" mehmanxanasının çimərliyində aparılan yenidənqurma və uyğunlaşdırma işlərinə baxış məqsədilə təşkil etdiyi tədbir çərçivəsində baş tutub.

Aksiya çərçivəsində Binəqədi rayonu, 272 saylı körpələr evi-uşaq bağçasının balaca fidanları tərəfindən Novxanı qəsəbəsində yerləşən çimərlikdə təmizlik işləri aparılıb və ətrafa atılmış tullantılar təmizlənib. Bu aksiyanın daha geniş tərkibdə ikinci mərhələsinin də keçirilməsi nəzərdə tutulub. Bu cür aksiyaların təşkil edilməsində əsas məqsəd uşaqlar vasitəsilə insanlara ətraf mühitin təmizliyinə riayət edilməsi, o cümlədən "Təmiz ətraf, təmiz mühit" devizinin məramını çatdırmaqdır.

Aksiya zamanı uşaqları Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Leyla Kərimova, Binəqədi bələdiyyəsinin sədri Sitarə Cabbarlı, sədr müavini Sabir Həsənov və bağçanın müəllimləri müşayiət ediblər.

# Ahıl və tənha vətəndaşlar üçün teatr turları



"Ahıllara və Tənhalara Dəstək" İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə Binəqədi rayonunda yaşayan ahıl və tənha vətəndaşlar üçün teatr turları təşkil edib. "Binəqədi rayonunda yaşayan ahıl və tənha vətəndaşların sosial adaptasiyası" layihəsi çərçivəsində həyata keçirilən layihənin əsas məqsədi bu kateqoriyadan olan insanların cəmiyyətə adaptasiyasını təmin etməkdir.

Bu barədə qəzetimizə məlumat verən ictimai birliyin sədri Ruhiyyə Məmmədovanın sözlərinə görə, teatr turları çərçivəsində Binəqədi rayonunda yaşayan 14 nəfər ahıl və tənha insan Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında olub. Onlar İlyas Əfəndiyevin "Məhv olmuş gündəliklər" və Hüseynbala Mirələmovun "Miras" tamaşasını izləyiblər. Teatr turlarında icra hakimiyyətinin, rayon Sosial Müdafiə Mərkəzinin və təşkilatın nümayəndələri də iştirak ediblər.

Təşkilatçılara dərin minnətdarlıqlarını bildirən yaşlı insanlar bu cür tədbirlərin davamlı olmasını arzu ediblər.

## “Birgə yaradaq” layihəsi çərçivəsində tədbirlər



Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi və M.Ə.Rəsulzadə bələdiyyəsinin təşkilatçılığı ilə «Birgə Yaradaq» layihəsi çərçivəsində qəsəbənin yeniyetmə və gəncləri üçün iyulun 13-də master-klass təşkil olunub.

Tədbirdə çıxış edən M.Ə.Rəsulzadə Bələdiyyəsinin sədri Hümbət Hüseynov bildirib ki, bu layihə bələdiyyənin 2016-cı il Fəaliyyət Planına uyğun olaraq həyata keçirilir. Məqsəd gənc nəslin peşə seçiminin istiqamətləndirilməsi, yaradıcı sənət növlərinin əxz edilməsi, həmçinin gənclərin asudə vaxtının səmərəli təşkilidir. Binəqədi RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Elnur Məmmədov bu layihənin bələdiyyə-sakin, bələdiyyə-vətəndaş münasibətlərini daha da möhkəmləndirəcəyini vurğulayıb və layihə iştirakçılarına uğurlar arzulayıb.

Master-klassı aparan peşəkar mütəxəssis, bu sahədə böyük təcrübəsi olan, bir sıra sərgilərin iştirakçısı, M.Ə.Rəsulzadə qəsəbəsinin sakini Bəyim Məmmədova çıxışında bələdiyyə tərəfindən qəsəbə gənclərinin inkişafına yönələn belə bir təşəbbüsü təqdirəlayiq hal hesab etdiyini deyib. Onun sözlərinə görə, bu layihə gənc istedadların üzə çıxarılması və yaradıcılıq potensiallarının artırılmasına xidmət edəcək.

Sonra yeniyetmələrlə master-klassa start verilib. Layihə çərçivəsində iştirakçılar lentlə, xırda muncuqlarla güllərin hazırlanmasını, eləcə də milçə ilə toxumanı öyrənəcəklər. Tədbir bir ay müddətində davam edəcək.

## “Multikulturalizm-musiqi muzeyi” mövzusunda tədbir



İyulun 20-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində “Multikulturalizm-musiqi muzeyi” mövzusunda tədbir keçirilib. Tədbirdə Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru Alla Bayramova Azərbaycandakı multikulturalizm ənənələri və tarixi barədə geniş məlumat verib. Bildirib ki, Azərbaycanda tarix boyu etnik və dini azlıqlar sərbəst yaşayıb, onlara öz mədəni irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi üçün əlverişli şərait yaradılıb.

Diqqətə çatdırılıb ki, dövlət başçısının Sərəncamı ilə 2016-cı il Azərbaycanda “Multikulturalizm ili” elan edilib, multikulturalizm dəyərlərinin qorunması və beynəlxalq səviyyədə təbliği məqsədilə xüsusi dövlət institutu – millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi xidməti təsis edilib, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi fəaliyyətə başlayıb. Bütün bu addımlar multikulturalizm dəyərlərinin qorunmasına göstərilən dövlət qayğısının göstəricisidir.

Alla Bayramova “Multikulturalizm ili” çərçivəsində iştirak etdiyi tədbirlərdən söz açıb.

Daha sonra tədbirdə muzeyin şöbə müdiri Xanım Abdinovanın “D.Şostakoviç və Azərbaycan musiqi mədəniyyəti” mövzusunda məruzəsi dinlənilib.

# Görülən işlər sakinlərin ürəyincədir

Binəqədi rayonunda başlanılmış abadlıq-quruculuq işləri bu gün də yüksək templə davam edir. Xatırladaq ki, ötən müddət ərzində rayonda ondan yuxarı nümunəvi məhəllə, gözəl xiyaban və parklar salınıb. Yaşayış massivində binaların fasadları yenilənib, giriş qapıları dəyişdirilib, həyətlər abadlaşdırılıb, çox mənzilli binaların qarşısında sakinlərin dincəlməsi üçün istirahət köşkləri, oturacaqlar qoyulub və uşaqlar üçün əyləncə qurğuları quraşdırılıb. Məhz rayonda aparılan ardıcıl quruculuq işlərinin nəticəsidir ki, bu gün rayonun ən böyük prospektləri hesab olunan Azadlıq və Ziya Bünyadov prospektləri boyunca yerləşən çox mənzilli yaşayış binalarının əksəriyyəti tamamilə yeni görkəm alıb. Rayon ərazisində aparılan abadlıq-quruculuq işlərinin davamı olaraq son günlərdə Azadlıq prospektində yaşıllıq zolaqları salınır, gül və dekorativ kollar əkilir. Prospektdə





aparılan abadlıq-quruculuq işləri zamanı işıqlanma sistemi də yenidən qurulur. Eyni zamanda görülən işlər çərçivəsində ərazidə yerləşən 11/162,12/164,14/166 və 15/168 saylı binaların qarşısında istirahət yerləri, uşaqlar üçün oyun əyləncə qurğuları yerləşdirilir və yaşıllıqlar salınır. Sakin məmnunluğu, rahatlığının təmin edilməsi məqsədilə mövcud abad məhəllədə yenidənqurma işləri həyata keçirilir.

Sözü gedən ünvanda olarkən bir daha deyilənlərin şahidi olduq. Belə ki, az vaxt ərzində prospektə sakinlərin zövqünü oxşayan yaşıllıqlar salınb, yol yenidən təmir edilib və ərzidən keçən köməkçi yolların təmirinə başlanılıb. Binaların girişləri müasir tələblərə uyğun təmir olunub. Bizimlə söhbət edən İsmayıl Həsənquluyev görülən işlərdən sakinlərin razı qaldığını deyib: “ Prospektin yenidən təmir edilməsi, binaların girişinin abadlaşdırılması, salınmış yaşıllıqlardakı ağaclardan və dirəklərdən səbətdə güllərin qoyulması maraqla qarşılanıb. Görünən budur ki, işlər başa çatdıqdan sonra prospekt tamamilə yeni görkəm alacaq. Onu da deyim ki, bu işlərlə yanaşı binamızın giriş hissəsi də təmir olunub, liftlər dəyişdirilib. İşıq, qaz, su ilə bağlı problemimiz yoxdur”.

Sorğumuzu cavablandıran 8-ci mikrorayon, Nizami Nərimanov küçəsi 21 saylı binada yaşayan Novruz Xuduyev bildirib ki, prospektə başlanlan işlər hamının ürəyincədir: “ Prospektdə avtomobillərin hərəkət etmələri üçün lazımı şərait yaradılıb,





yeni döngələr salınıb və buradakı yaşıllıqlar tamamilə yeni görkəm alıb. Hazırda ərazinin gözəlləşdirilməsi məqsədilə yeni yaşıllıq salınır, ağac və dekorativ gül kolları əkilir. Eyni zamanda ərazidə mütəmadi təmizlik işləri aparılır. Nəqliyyat vasitələrinin və piyadaların rahat, maneəsiz və təhlükəsiz şəkildə hərəkətini təmin etmək, həmçinin yollarda sıxlığı aradan qaldırmaq istiqamətində tədbirlər həyata keçirilir. Burada həmçinin yeni konteyner meydançaları quraşdırılıb. Bu da sakinlərin daha çox marağına səbəb olub. Prospektə piyadaların təhlükəsiz və maneəsiz hərəkətini təmin etmək üçün səki daşları düzülür və binaların eyvanlarında təmir-bərpa işləri aparılır”.

Həmsöhbətimiz Şükür Məcidov da ərazidə görülən işlərdən məmmunluğunu gizlətməyib: “ Görülən işlərdəndən gül iyi gələr. Həqiqətən əvvəllər burada təmir işləri aparılmışdır. İnanmazdıq ki, prospekti bu cür yenidən qursunlar. Bu o deməkdir ki, rayonda abadlıq işləri mütəmadi xarakter alıb və digər ərazilərdə də yenidən abadlıq işlərinə başlanılacaq. Düzünü deyim ki, rayonda istismar müddəti başa çatmış binaların sökülüb yerində təzə müasir evlərin tikilməsi məni çox sevindirdi. Prospektə gördüklərim bir daha ondan xəbər verir ki, bundan sonra da rayon ərazisində insanların zövqünü oxşayan gözəliklər salınacaq. Bax buna deyərəm əhsən. Bax, Binəqədi belə olmalıdır. Doğrudan da burada yaşamağa dəyər».

Binəqədi Rayon İcra Hakimiyyətinin
Sakinlərin Müraciət Xidməti




Sizin zənginiz bizim üçün çox əhəmiyyətlidir!
www.binegedi-ih.gov.az

# Binəqədi gəncləri beynəlxalq festivalda iştirak ediblər

Azərbaycanda Uşaq Fondunun yaradılmasında ümummilli lider Heydər Əliyev böyük xidmətlər göstərib. Ulu öndər Heydər Əliyev uşaqlara qarşı həmişə qayğıkeş və diqqətli olub. Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyev ulu öndər tərəfindən qoyulmuş ənənələri uğurla davam etdirir. Bunun nəticəsidir ki, Azərbaycan Uşaq Fondu diqqətdən kənarda qalmayıb, inkişafını davam etdirib. Fond tərəfindən hər il paytaxt və regionlarda uşaqların sağlamlığı və təlim-tərbiyəsinin yüksək səviyyədə təşkili üçün müxtəlif maraqlı layihələr həyata keçirilir. Qeyd edək ki, Uşaq Fondu 1988-ci ilin aprelində yaradılıb. 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra isə fond fəaliyyətini müstəqil şəkildə davam etdirib. Fondun əsas işi uşaqlara mənəvi və maddi dayaq olmaq, onları həmişə diqqətdə saxlamaqdır.




Azərbaycan Uşaq Fondunun yerli şöbələri də uğurlu fəaliyyətini davam etdirir. Fondun Binəqədi rayon şöbəsi də öz işini Uşaq Hüquqları haqqında Konvensiyanın maddələrinə uyğun olaraq qurub. Fondun sədri Esmiralda Rəhimova bizimlə söhbətində bildirdi ki, qurum tarixi günlər və digər bayramlarda geniş tədbirlər keçirir, uşaq sağlamlıq mərkəzləri, uşaq evləri ilə sıx əməkdaşlıq edir: “Bizim əsas işimiz BMT-nin “Uşaq hüquqları haqqında” Konvensiyası və Azərbaycanın bu sahədəki qanunları ilə bağlı maarifləndirmə işlərinin aparılması, uşaq yaradıcılığının, biliklərinin və intellektual səviyyəsinin artırılması, milli-mənəvi və ailə dəyərlərinin qorunub saxlanılmasıdır. Məhz bu məqsədilə məktəblərdə maarifləndirmə işlərinin aparılması, istedadlı uşaqların aşkara çıxarılması, intellektual, idman və digər yarışların, müsabiqələrin, fənn olimpiadalarının, viktorinaların təşkili, uşaqlar arasında vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi üçün xüsusi tədbirlər təşkil olunur. Uşaqların pis vərdişlərdən uzaqlaşdırılması, onların asudə vaxtlarının səmərəli təşkili ilə də bağlı mütəmadi tədbirlər keçirilir”. E.Rəhimovanın sölərinə görə, rayonda aztəminatlı, məcburi köçkün ailələrdən olan, valideyn himayəsindən məhrum olmuş və xüsusi qayğıya ehtiyacı olan uşaqlara maddi və mənəvi yardımlar göstərilir. Bundan başqa, yay tətilində gəzintilər, müalicəvi bərpa dəstəyi və uşaqların əl işlərindən ibarət sərgi-satışlar da keçirilir. “Təşkil olunan bütün tədbirlərdə Binəqədi Rayon İcra Hakimiyyəti bizə yaxından dəstək verib. Rayon İcra Hakimiyyətinin köməkliyi ilə müxtəlif tədbirlər təşkil olunub».

Fondun Binəqədi rayon şöbəsi «Multikulturalizm ili»çərçivəsində də bir sıra tədbirlər həyata keçirir. Bundan başqa, “Ölkəmizi tanıdaq” devizi ilə müxtəlif istiqamətdə Azərbaycan tarixi, mədəniyyəti xarici ölkələrdə nümayış olunur. İyul ayının əvvəllərində qurumun 6 gənci Rusiyanın Sankt-Peterburq şəhərində keçirilən “Mən bacararam” XIV beynəlxalq festivalda iştirak edib: «Gənclər və İdman Nazirliyi və Binəqədi rayon İcra Hakimiyyəti bizim gənclərimizə dəstək olub. YAP Binəqədi rayon şöbəsi və Binəqədi Bələdiyyəsi bizim üçün şərait yaradıb. Festivalda istedadlı gənclərimiz öz əl işləri ilə münsiflər heyətini heyran edib. Uşaqlarmız I, II və III Gran Pri kuboku və diplomlarla mükafatlandırılıb. Azərbaycan Uşaq Fondu ev sahiblərinə Azərbaycanın milli məhsulları və Birinci Avropa Oyunları ilə bağlı suvenirlər hədiyyə ediblər».